

Milli azadlıqdan şirin nemət yoxdur!

# İslam dünyasının nəzərləri Şuşada




Bax səh. 3


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

18 aprel 2025-ci il, cümə

№ 064 (6892)

Qiyməti 60 qəpik


# Azərbaycan-Çin əlaqələri strateji tərəfdaşlıq xarakteri daşıyır



Bax səh. 2

# Münasibətlərimiz qarşılıqlı hörmət əsasında inkişaf edir

Bax səh. 3

## Azərbaycan - Gürcüstan: Yüksək səviyyədə olan dövlətlərarası münasibətlər

Son vaxtlarda qonşu və dost dövlətlər olan Azərbaycanla Gürcüstan arasında siyasi dialoqun intensivliyi daha da artıb. Prezident İlham Əliyev bir neçə gün bundan əvvəl Bakıda ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda çıxışı zamanı Gürcüstanla münasibətlərin ölkəmiz üçün strateji əhəmiyyət daşıdığına xüsusi diqqət çəkdi. Bunun ardınca Antaliya Diplomatiya Forumunda Prezident İlham Əliyev ilə Gürcüstanın Baş naziri İrakli Kobaxidze arasında görüş baş tutdu və qonşu ölkənin yüksəksəviyyəli rəsmisi də respublikamızla münasibətlərin dərinləşməsinin böyük önəmini vurğuladı.

Aprelin 16-da isə Gürcüstanın altıncı Prezidenti Mixeil Kavelaşvili ölkəmizə rəsmi səfərə gəldi. Bu, onun ötən il dekabrın 14-də Prezident seçildikdən sonra ilk xarici səfəridir. Prezident İlham Əliyev bu səfəri Gürcüstan-Azərbaycan əlaqələrinin mahiyyətinin, xalqlarımızın dostluğunun, qardaşlığının göstəricisi kimi dəyərləndirib: "...Adətən seçkilərdən sonra birinci səfər rəmzi xarakter daşıyır və bu səfər Azərbaycana edilib. Eyni zamanda, Gürcüstanın Baş naziri də seçkilərdən sonra ilk rəsmi səfərini Azərbaycana edib. Yəni bu, artıq gözəl ənənəyə çevrilib".

Azərbaycan - Gürcüstan münasibətləri regional əməkdaşlığa gözəl nümunədir. Prezident İlham Əliyevin bildirdiyi kimi, əsrlər boyu bizim xalqlarımız sülh, mehribanlıq, qardaşlıq şəraitində yaşamışlar. Bu gün də bu, belədir. Dövlətlərarası münasibətlər də yüksək səviyyədədir. Öz növbəsində Mixeil Kavelaşvili də mətbuata bəyanatında iki qonşu dövlət arasında münasibətlərin nümunəvi olmasından məmnunluğunu bildirərək bunu şərtləndirən amillərə diqqət çəkib.  Sitat: "Bizim dostluğumuz qarşılıqlı hörmətə və bir-birimizin milli maraqlarının nəzərə alınmasına əsaslanır. Biz münasibətlərdə güvənməyin nə qədər vacib olduğunu başa düşürük və sözümüzün dəyərini bilirik. Bizi xilas edən və bu günə çatdıran bir sıra yazılmamış qanunlarımız, dəyərlərimiz var...

Bax səh. 4

## Mir Cəlal Paşayev - Ədəbi kimliyi, elmi-nəzəri düşüncəsinin miqyasları ilə

Bax səh. 5

## Sülh sazişi üçün zəmin...

Bax səh. 4

## Fransadan İrəvana "son həmlə"...

Bax səh. 6

## Avropa İttifaqında fikir ayrılığı...

Bax səh. 6

## Etibarlı dost ölkə, bərabərhüquqlu tərəfdaş...

Azərbaycan Cənubi Qafqaz regionunda söz sahibi olan lider dövlət, Çin isə Asiyanın və dünyanın iqtisadi güc mərkəzlərindən biridir. Siyasi-iqtisadi amillər, nəqliyyat-tranzit qovşaqları, geosiyasi amillər və digər mühüm faktorlar hər iki ölkənin bir sıra ortaq baxış və strateji maraqlarını tamamlayır. Prezident İlham Əliyevin ötən illərdə Çinə səfərləri, habelə bu ölkənin hökumət heyətlərinin respublikamıza səfərləri dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi və dərinləşdirilməsinə səbəb olub. Həmçinin hökumət nümayəndələrinin, iqtisadi qurumlarının və biznes icmalarının qarşılıqlı səfərləri və əldə edilən razılaşmalar iqtisadi-ticari münasibətləri daha da irəliyə aparıb.

Ölkələr arasında iqtisadi-ticarət dövriyyəsi son 10 ildə ən yüksək səviyyəyə çatıb. Belə ki, 2015-ci ildə isə qarşılıqlı mal dövriyyəsinin həcmi 500 milyon dollar idisə, 2024-cü ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 3 milyard 744 milyon dollar təşkil edib. Çin xarici ticarət balansında idxalın həcminə görə, Azərbaycanın birinci tərəfdaşı olub. Belə ki, ötən il bu ölkədən idxal olunmuş malların həcmi 3,7 milyard dollar təşkil edib, Azərbaycanın Çinə ixracı təxminən 25 milyon dollara bərabər olub. 2025-ci ilin birinci rübündə ticari dinamika daha da artıb və ötən ilin eyni dövrünə nisbətən 37 faiz çoxalaraq 1,02 milyard dollar təşkil edib.

Ümumilikdə, Çin Azərbaycanın 5 böyük ticarət tərəfdaşından biri olmaqla 4-cü yerdə qərarlaşır. Cənubi Qafqazda isə birinci tərəfdaşıdır. Çinin bu region ölkələri ilə cəmi ticarət mübadiləsinin 70 faizə yaxını Azərbaycanın payına düşür.

Çin, eyni zamanda, Cənubi Qafqazda ən çox sərmayələri Azərbaycana yönəldib. Bu Asiya nəhənginin ölkəmizə yatırdığı investisiyaların həcmi 942 milyon dollarına çatıb. Eyni zamanda, Azərbaycan özü də potensial sərmayədar dövlət kimi Asiyanın maliyyə sektorunda öz mövqeyini gücləndirir və Dövlət Neft Fondunun investisiya portfelinin 2,1 milyard dolları Çinin maliyyə-investisiya sektorlarını əhatə etməkdədir.

İmkanlar isə daha böyükdür. Bu məqsədlə tərəflər dayanmadan intensiv şəkildə iqtisadi dialoq və qarşılıqlı biznes...

Bax səh. 3

# Cəmiyyətin inkişafı üçün!



Bax səh. 8







# Azərbaycan-Çin əlaqələri strateji tərəfdaşlıq xarakteri daşıyır

## Prezident İlham Əliyev Çinin Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Çin Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Lu Meyin etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim edib. Prezident İlham Əliyev səfirlə söhbət edib. Azərbaycan-Çin əlaqələrinin strateji tərəfdaşlıq xarakteri daşıdığını deyən dövlətimizin başçısı ötən il Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşünü və onunla birlikdə ölkələrimizin strateji tərəfdaşlığına dair birgə bəyanatın qəbul edilməsini məmnunluqla xatırladıb.

Prezident İlham Əliyev Azərbaycanla Çin arasında əməkdaşlığın geniş sahələri - siyasi, iqtisadi-ticari, nəqliyyat, enerji, sənaye, sərmayələr, təhlükəsizlik, mədəni-humanitar və digər sahələri əhatə etdiyini vurğulayıb, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlığına toxunaraq qarşılıqlı dəstəyi qeyd edib.

Prezident İlham Əliyev Azərbaycanın “Vahid Çin” siyasətini daim dəstəklədiyini vurğulayıb. “Bir kəmər, bir yol” layihəsinin geniş coğrafiyada ölkələri bir araya gətirərək əməkdaşlığı təşviq edən layihə olduğunu deyən dövlətimizin başçısı Azərbaycanın Çinin bu təşəbbüsünə dəstək verən ilk ölkələrdən biri olduğunu qeyd edib.

Azərbaycanda bütün zəruri infrastruktur layihələrinin yaradıldığını və bir neçəsinin də icra mərhələsində olduğunu vurğulayan Prezident İlham Əliyev Orta Dəhlizin inkişafı baxımından ölkələrimiz arasında əməkdaşlıq üçün geniş imkanların mövcudluğunu bildirib.

Səfir Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını Azərbaycan Prezidentinə çatdırıb. Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Çin Xalq Respublikasının Sədrinə çatdırmağı xahiş edib.

Lu Mey Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurla inkişafının Çin tərəfindən də dəstəkləndiyini qeyd edib. O, ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədiyini vurğulayıb. Səfir ölkələrimiz arasında münasibətlərin dostluq və strateji tərəfdaşlıq xarakteri daşıdığını qeyd edərək, əlaqələrimizin bundan sonra da inkişafı istiqamətində səylərini əsirgəməyəcəyini bildirib.

Çin-Azərbaycan münasibətlərinin inkişafında Ulu Öndər Heydər Əliyevin roluna toxunan Lu Mey Ümummilli Liderin zəngin irsinin əsasında ölkəmizin bu gün uğurla inkişaf etdiyini vurğulayıb.

# Dövlətimizin başçısı Sloveniyanın xarici işlər nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Sloveniya Respublikasının xarici işlər naziri Tanya Fayonu qəbul edib. Görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin inkişafından məmnunluq ifadə olunub, bu yaxınlarda xarici işlər nazirləri səviyyəsində aparılan siyasi məsləhətləşmələr qeyd edilib.

Dövlətimizin başçısı Azərbaycanın Balkan ölkələri ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyini diqqətə çatdırıb.

Görüşdə ölkəmizin enerji sahəsində Balkan regionu, o cümlədən Sloveniya ilə əməkdaşlığının inkişafına toxunulub və bu sahədə perspektivlərə dair fikir mübadiləsi aparılıb. İqtisadi-ticari münasibətlərimizin genişləndirilməsi üçün iki ölkənin biznes dairələri arasında əlaqələrin inkişafının vacibliyi vurğulanıb.

Söhbət zamanı Orta Dəhlizin əhəmiyyəti qeyd edilib, dəhlizin Avropa ilə Çin arasında iqtisadi-ticari əlaqələrin inkişafında mühüm nəqliyyat arteriyalarından biri olduğu bildirildi və bunun Sloveniya şirkətləri üçün də əlverişli imkanlar yaratdığı vurğulanıb. Bu xüsusda, Azərbaycanın və Sloveniyanın limanları arasında əməkdaşlıq məsələləri müzakirə edilib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Etibarlı dost ölkə, bərabərhüquqlu tərəfdaş...

## Azərbaycan-Çin iqtisadi-ticari münasibətləri keyfiyyətcə yeni mərhələyə daxil olur

Azərbaycan Cənubi Qafqaz regionunda söz sahibi olan lider dövlət, Çin isə Asiyanın və dünyanın iqtisadi güc mərkəzlərindən biridir. Siyasi-iqtisadi amillər, nəqliyyat-tranzit qovşaqları, geosiyasi amillər və digər mühüm faktorlar hər iki ölkənin bir sıra ortaq baxış və strateji maraqlarını tamamlayır. Prezident İlham Əliyevin ötən illərdə Çinə səfərləri, habelə bu ölkənin hökumət heyətlərinin respublikamıza səfərləri dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi və dərinləşdirilməsinə səbəb olub. Həmçinin hökumət nümayəndələrinin, iqtisadi qurumlarının və biznes icmalarının qarşılıqlı səfərləri və əldə edilən razılaşmalar iqtisadi-ticari münasibətləri daha da irəliyə aparıb.



### 4 milyard dollara yaxınlaşan iqtisadi dövriyyə...

Ölkələr arasında iqtisadi-ticarət dövriyyəsi son 10 ildə ən yüksək səviyyəyə çatıb. Belə ki, 2015-ci ildə isə qarşılıqlı mal dövriyyəsinin həcmi 500 milyon dollar idisə, 2024-cü ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 3 milyard 744 milyon dollar təşkil edib. Çin xarici ticarət balansında idxalın həcminə görə, Azərbaycanın birinci tərəfdaşı olub. Belə ki, ötən il bu ölkədən idxal olunmuş malların həcmi 3,7 milyard dollar təşkil edib, Azərbaycanın Çinə ixracı təxminən 25 milyon dollara bərabər olub. 2025-ci ilin birinci rübündə ticari dinamika daha da artıb və ötən ilin eyni dövrünə nisbətən 37 faiz çoxalaraq 1,02 milyard dollar təşkil edib.

Ümumilikdə, Çin Azərbaycanın 5 ən böyük ticarət tərəfdaşından biri olmaqla 4-cü yerdə qərarlaşır. Cənubi Qafqazda isə birinci tərəfdaşıdır. Çinin bu region ölkələri ilə cəmi ticarət mübadiləsinin 70 faizə yaxını Azərbaycanın payına düşür.

### 1 milyard dollara çatan Çin investisiyaları




Çin, eyni zamanda, Cənubi Qafqazda ən çox sərmayələri Azərbaycana yönəldib. Bu Asiya nəhənginin ölkəmizə yatırdığı investisiyaların həcmi 942 milyon dollara çatıb. Eyni zamanda, Azərbaycan özü də potensial sərmayədar dövlət kimi Asiyanın maliyyə sektorunda öz mövqeyini gücləndirir və Dövlət Neft Fondunun investisiya portfelinin 2,1 milyard dolları Çinin maliyyə-investisiya sektorlarını əhatə etməkdədir.

İmkanlar isə daha böyükdür. Bu məqsədlə tərəflər dayanmadan intensiv şəkildə iqtisadi dialoq və qarşılıqlı biznes tədbirləri təşkil edir, investisiya və ticari təşviqləri artıran təşəbbüslərlə çıxış edir. Ötən il imzalanmış Azərbaycan və Çin arasında arasında Strateji Tərəfdaşlıq Bəyannaməsinin əsas hədəflərindən biri olan ticarət-iqtisadi və investisiya əlaqələrinin daha da artırılması üçün hökumət-biznes görüşləri ardıcıl xarakter almağa başlayıb.

Aprelin 16-da Bakıda keçirilən Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının 10-cu iclasında Çin Xalq Respublikasının kommersiya nazirinin müavini, Çinin ticarət üzrə beynəlxalq nümayəndəsi Lin Ci bildirib ki, Çin və Azərbaycan səmimi və etibarlı dost ölkə, həm də bərabərhüquqlu və qarşılıqlı faydalı tərəfdaşlardır. İki ölkə münasibətlərin inkişafına dair yaxın perspektiv planlar müəyyən edilib ki, əsas prioritetlər iqtisadi proqramlarda yeni istiqamətlərə uyğun fəal addımlar atmaqdır.

### Çində Azərbaycanın “Ticarət Evləri”nin sayı artır

Tərəflər sənaye, neft-qaz, neft-kimya, “yaşıl enerji”, yüksək texnologiyalar, innovasiyalar və kosmik sahələrdə ticari coğrafiyanı genişləndirmək niyyətindədir. Lin Ci ölkəsinin Azərbaycanın istehsal etdiyi məhsulların idxal həcmini və çeşidini genişləndirilməsində maraqlı olduğunu, Çin bazarında aqrar və yeyinti sənayesi məhsullarının satışı üçün münbit şərait yaradıldığını xatırladaraq xüsusilə nar məhsulları və şərabın alıcılarda böyük maraq doğurduğunu diqqətə çatdırıb. Həmçinin quş əti, fındıq və badamın Çinə ixracı üçün geniş imkanlar var. Beynəlxalq Ticarət Mərkəzinin hesablamalarına görə, Azərbaycanın Çin bazarına əlvan və qiymətli metallar, ərzaq sənayesi məhsulları göndərmək imkanları var. Bu prosesdə Çində fəaliyyət göstərən Çində Azərbaycan Ticarət Evlərinin xüsusi rolu vardır, indiyədək Çinin Çindao, Canciaciye, Sian, Çendu və Pekin şəhərlərində Azərbaycanın “Ticarət Evləri” açılıb, eləcə də Şanxay, Harbin, Cinan və Uhan şəhərlərində 4 ticarət bölməsi, Urumçi və Şanxayda isə 3 Şərab Evinin fəaliyyəti təmin edilib. Yeni “Ticarət Evləri”nin açılması nəzərdə tutulur. Bu Evlərdə “Made in Azerbaijan” rəflərinin təşkili yerli qeyri-neft məhsullarının vahid brend ilə dünyada tanıdılması və təşviq edilməsi baxımından ən təsirli ixrac ideyası sayıla bilər.




### İpək Yolunun yeni dayanacağı - Zəngəzur dəhlizi

Ölkələr arasında nəqliyyat və tranzit sahəsində də əməkdaşlıq uğurla inkişaf edir. Prezident İlham Əliyevin 2015-ci ildə Çinə səfəri zamanı “Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında “İpək Yolu İqtisadi Kəməri”nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu”nun imzalanmasından sonra ölkəmiz bu marşrutda öz yerini müəyyənləşdirib. 2019-cu ilin aprelində Pekində keçirilən 2-ci “Bir kəmər, bir yol” Beynəlxalq Əməkdaşlıq Forumunda iştirak edən Azərbaycanın dövlət başçısı Asiya ilə Avropa arasında körpülərin qurulmasına, gələcək rifaha xidmət edən nəqliyyat-logistika qovşaqlarına tinvestisiya yatırdığımızı bəyan edib. Azərbaycan Şərq-Qərb dəhlizi olan “Bir kəmər, bir yol” layihəsinin ən strateji halqası olan Trans-Xəzər (Orta Dəhliz) nəqliyyat dəhlizi ailəsinin fəal üzvü kimi son illər ərzində bu layihədə strateji rolunu və mövqeyini daha da möhkəmləndirib və bu dəhlzidə öz layiqli yerini alıb.

Orta Dəhlizin axıcılığının yüksəlməsi tərəflər arasında yükdaşınmalaırn həcmini ilbəil artırıb. 2024-cü ildə Azərbaycan və Çin arasında tranzit daşımalarının həcmi 86 faiz (378 min ton) artıb. Azərbaycanda nəqliyyat infrastrukturunun inkişafı və tranzit potensialının artırılması məqsədilə həyata keçirilən genişmiqyaslı layihələr - Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu xətti və digər nəqliyyat dəhlizləri Çindən Avropaya və əks istiqamətə ən qısa və səmərəli marşrutu təşkil edir.

Orta Dəhlizin tərkib hissəsi kimi dəyərləndirilən Zəngəzur dəhlizinin reallaşması isə regionun nəqliyyat-kommunikasiya sisteminin bərpasının böyük perspektiv vəd etməklə, sülhə və təhlükəsizliyə xidmət göstərəcək, Çinin “Bir Kəmər, Bir Yol” proqramını tamamlayacaq.

### Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) çərçivəsində yeni imkanlar

Strateji Tərəfdaşlıq Bəyannaməsinin mühüm bəndlərindən biri də Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) çərçivəsində Çinlə siyasi, iqtisadi, nəqliyyat-tranzit təmaslarının əlaqələndirilməsi, ölkəmizin bu nəhəng təşkilatda təmsilçiliyinin təmin edilməsidir. ŞƏT-də təmsil olunmaq Azərbaycan-Çin strateji tərəfdaşlığını yeni mərhələyə qaldırmaqla yanaşı, həm də regional və beynəlxalq çərçivədə təmasların artırılması, mübadilələrin intensivləşdirilməsi və əməkdaşlığın dərinləşməsinə dərin zəmin yaradır. Bu mötəbər təsisat siyasi-iqtisadi həmrəylik platforması olmaqla, Azərbaycanın ŞƏT blokunda qlobal mühitlə inteqrasiyasını daha da dərinləşdirəcək.

### Qarşılıqlı vizasız gediş-gəliş haqqında Sazişin imzalanması nəzərdə tutulur

İki ölkə arasında turizm sahəsində əlaqələr müsbət şəkildə inkişaf edir, qarşılıqlı turist axını dinamik şəkildə artır. Ötən il Azərbaycana gələn Çin turistlərinin sayında əhəmiyyətli artım qeydə alınıb. Burada Azərbaycanın Çin vətəndaşları üçün birtərəfli qaydada vizanı ləğv etməsi mühüm rol oynayıb. Azərbaycan Prezidentinin yaxın vaxtlarda Çinə nəzərdə tutulan səfəri çərçivəsində qarşılıqlı vizasız gediş-gəliş haqqında Sazişin imzalanması gözlənilir ki, bu, ölkələrimiz arasında təmaslara ciddi təkan verəcək və qarşılıqlı səfərlərin sayını artırmağa xidmət edəcək.

Dövlətimizin başçısının Çinə qarşıdakı səfəri çərçivəsində ölkəmizdə BYD şirkəti ilə birlikdə elektrik avtobuslarının istehsalının lokallaşdırılması layihəsinə start veriləcəyi də gözlənilir.

### Çin şirkətləri azad ərazilərə investisiya yatırmaqda maraqlıdır

İki ölkə arasında “yaşıl enerji” sahəsində əməkdaşlıq strateji prioritet təşkil edir. Azərbaycan bu sahədə böyük potensiala, Çin geniş texnoloji resurslara və zəngin təcrübəyə malikdir. Bu sahədə birgə səylər bu istiqamətdə uğurlu əməkdaşlığın qarantı olacaq. Xüsusilə də, Çinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində “yaşıl enerji” və “ağıllı texnologiyalar”a sərmayə planları böyükdür. Komissiyanın həmsədri, Baş nazirin müavini Şahin Mustafayev bildirib ki, Çin işğaldan azad olunmuş ərazilərindəki həyata keçirilən müasir infrastruktur layihələri və perspektivlər iqtisadi layihələrə investisiya yatırmağa maraqlıdır.

Yeri gəlmişkən, aprelin 17-də Pekində Azərbaycanın İqtisadiyyat Nazirliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO), Azərbaycanın Çin Xalq Respublikasındakı ticarət nümayəndəliyinin, Çinin Milli İnkişaf və İslahat Komissiyasının (NDRC) Beynəlxalq Əməkdaşlıq Mərkəzinin təşkilatçılığı ilə Çin-Azərbaycan sənaye və investisiya təşviqi konfransı keçirilib. Dövlət rəsmiləri, investorlar, iş adamları daxil olmaqla təxminən 250 nəfərin iştirakı etdiyi konfrans dialoq, etimad quruculuğu və uzunmüddətli əməkdaşlıq üçün katalizator rolunu oynayır. Tədbirin məqsədi Azərbaycanın əlverişli investisiya şəraitini və imkanlarını tanıtmaq, xarici investorlar üçün Azərbaycan qurumlarının rolu və dəstəyini nümayiş etdirmək, Çin investorları ilə birbaşa əlaqə yaratmaq, uzunmüddətli sənaye əməkdaşlığı və kapital axını üçün zəmin hazırlamaqdır.

Beləliklə, Azərbaycan və Çin arasında ikitərəfli münasibətlərin inkişafı regional və qlobal səviyyədə yeni imkanları səfərbər etməklə, nəhəng bir coğrafiyada rifah və əməkdaşlığın möhkəmlənməsində əsaslı rol oynayacaq.

***E.CƏFƏRLİ***

# İslam dünyasının nəzərləri Şuşada

## Tarixi şəhərimiz "Postmünaqişə dövründə mədəni irsin qorunması və dirçəldilməsi" mövzusunda I İslam Dünyası Mədəniyyət Forumuna ev sahibliyi edib

Azərbaycan Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinə, xüsusi yanaşmasına uyğun olaraq dünyada İslam həmrəyliyinin möhkəmlənməsinə davamlı töhfələr verir. Ölkəmdə 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunması, Azərbaycanın böyük uğurla IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməsi, həmçinin müsəlman ölkələrini birləşdirən ayrı-ayrı təsisatlarda yüksək fəallıq ortaya qoyması bunun əyani təsdiqidir.

Ənənələrin davamı olaraq mədəniyyət beşiyimiz sayılan Şuşa "Postmünaqişə dövründə mədəni irsin qorunması və dirçəldilməsi" mövzusunda I İslam Dünyası Mədəniyyət Forumuna ev sahibliyi edib. Mədəniyyət Nazirliyinin təşkilatçılığı, ICESCO və Azərbaycan Respublikası Prezidentinin Şuşa Rayonunda Xüsusi Nümayəndəliyinin tərəfdaşlığı ilə gerçəkləşən Forumda respublikamızdan və ICESCO-dan rəsmilər, quruma üzv bir sıra ölkələrdən nümayəndələr, mədəniyyət xadimləri və media nümayəndələri iştirak ediblər. Eyni zamanda, aprelin 17-də "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin rəsmi bağlanış mərasimi baş tutub. Forumun açılışında çıxış edən mədəniyyət nazirinin müavini Səadət Yusifova tədbirin aktual mövzuya həsr olunduğunu deyib. O bildirib ki, Forum "Şuşa - 2024 İslam Dünyasının Mədəniyyət Paytaxtı" üzrə fəaliyyət planının mühüm tərkib hissəsidir.






Şuşada baş tutan Forumun məqsədi İslam dünyası ölkələri arasında mədəni inteqrasiyanın genişləndirilməsi, İslam irsinin qorunması və təbliğinə töhfə vermək üçün mexanizmlərin hazırlanması, eyni zamanda Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan bərpa və yenidənqurma işləri, həmin ərazilərdə Ermənistanın işğal dövründə vandalizmə məruz qalmış tarixi-mədəni irsin bərpası istiqamətində görülən işləri diqqətə çatdırmaqdır

Azərbaycan da silahlı münaqişənin mədəni sərvətlərimizə dağıdıcı təsirini yaşamış ölkədir. Təxminən 30 ili əhatə edən işğal dövründə ərazilərimiz erməni vandalları tərəfindən sözün əsl mənasında urbisid və ekosid siyasətinə məruz qalıb. O cümlədən tarixi mədəni-dini abidələrimiz ciddi şəkildə ziyan çəkib, bir sıra hallarda onlara münasibətdə təhqiramiz əməllərə yol verilib. Qəbiristanlıqları dağıdılması, məscidlərdə donuz saxlanılması bunun əyani təsdiqidir. "Təəssüf ki, insanlığın beşiklərindən biri sayılan Azıx mağarası Ermənistanın işğalı zamanı silah anbarı kimi istifadə olunub". Bunu forumda Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva deyib. O, həmçinin işğaldan azad olunduqdan sonra Xudavəng monastırı ilə bağlı araşdırmaların aparıldığını, arxeoloji məlumatların öyrənildiyini də diqqətə çatdıraraq "Bu məşhur kilsə işğal dövründə saxtalaşdırılıb, arxeoloji artefaktlar ərazidən çıxarılıb. Biz bu dağıntılara qarşı etiraz etməyə çalışmışıq. Ən dəhşətli hal isə divarlardakı freskaların kəsilib oğurlanmasıdır", - deyə vurğulayıb.

### Bütün İslam dünyasının mədəniyyət və qəhrəmanlıq rəmzlərindən biri

Şuşa Azərbaycan xalqı üçün son dərəcə əziz bir məkan olduğu kimi, bütün İslam dünyası üçün də həm mədəniyyət şəhəri, həm də qəhrəmanlıq məskəni kimi böyük rəmzi məna daşıyan bir şəhərdir. Burada tarix boyunca İslam mədəniyyətinə aid çoxsaylı abidələr yaradılıb. Bu mənada, Şuşanın 2024-cü il üçün İslam dünyasının mədəniyyət paytaxtı seçilməsi təsadüfi deyil. Bu əlamətdar hadisə isə 2023-cü il 25 sentyabr tarixində Qətər dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında baş verib. Həmin konfransda ICESCO-nun İslam dünyasının mədəniyyət paytaxtı proqramına Azərbaycanın mədəniyyət naziri Şuşanın 2024-cü il üçün İslam dünyasının mədəniyyət paytaxtına namizədliyini təqdim edib. Konfrans iştirakçılarının yekdil rəyi ilə Şuşa 2024-cü il üçün İslam dünyasının paytaxtı elan olunub.

Qeyd edək ki, Şuşanın "İslam dünyasının mədəniyyət paytaxtı" adına namizədliyinin irəli sürülməsi məqsədilə ICESCO-nun müvafiq missiyası burada olub. Şəhərdə aparılan quruculuq işləri missiya tərəfindən yüksək qiymətləndirilib. Bundan əlavə, Birinci vitse-prezident, ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın Şuşanın namizədliyinin irəli sürülməsi prosesinə yaxından dəstək göstərməsi səsvermənin ölkəmizin xeyrinə nəticələnməsində xüsusi rol oynayıb.

Azərbaycan dövləti və cəmiyyəti İslam dünyasının bəhs olunan qərarını böyük məsuliyyət kimi qəbul edib. Prezident İlham Əliyev 21 noyabr 2023-cü il tarixində "Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Dövlət başçısının imzaladığı Sərəncama uyğun olaraq geniş əhatə dairəsinə malik olan tədbirlər müəyyənləşdirilib. Artıq tarixə dönən 2024-cü il yaddaşlarda həm də zəngin "Şuşa ili" kimi qaldı. Tədbirlər həm Şuşada, həm də ayrı-ayrı İslam ölkələrində baş tutdu.




Qeyd edək ki, bundan əvvəl də ayrı-ayrı Azərbaycan şəhərləri İslam dünyasının mədəniyyət paytaxtı adını qazanıb. 2009-cu ildə Bakı, 2018-ci ildə isə Naxçıvan şəhəri də İslam dünyasının mədəniyyət paytaxtı elan edilib. Müxtəlif illərdə Azərbaycan şəhərlərinin İslam dünyasının mədəniyyət paytaxtları seçilməsi isə heç də təsadüfi deyil. Prezident İlham Əliyevin bildirdiyi kimi, biz bunu İslam dünyasının Azərbaycana növbəti dəstəyinin, hörmətinin əlaməti kimi qəbul edirik

### İşğaldan azad edilmiş ərazilərdə tarixi abidələrin bərpasına həssas yanaşma

Azərbaycan dövləti və cəmiyyəti postmüharibə dövründə işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq işləri həyata keçirməklə paralel şəkildə, tarixi mədəni-dini abidələrin bərpasına da xüsusi həssaslıqla yanaşır. Forumda Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimiz tərəfindən azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işləri ilə bağlı ətraflı məlumat verib. O qeyd edib ki, Ağdam, Füzuli və Xocavənd işğaldan azad edildikdən sonra burada bir sıra mədəni irs obyektlərinin vandalizmə məruz qaldığı aşkar olunub. Xüsusi nümayəndə diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bu mədəni və tarixi abidələrin bərpası və dirçəldilməsi prosesi davam etdirilir.

Eyni zamanda, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da işğaldan azad edilmiş ərazilərdə tarixi abidələrin bərpasında fəal şəkildə iştirak edir. Mehriban xanım Əliyeva 2020-ci il dekabrın 8-də Fondun işğaldan azad edilən ərazilərdəki mədəni-dini abidələrin, məscidlərin bərpası üzrə layihəyə başladığını bəyan edib. Bununla da Heydər Əliyev Fondu tarixi bərpa işlərində dövlət tərəfindən həyata keçirilən layihələrə vətəndaş cəmiyyətinin üzvü kimi öz dəstəyini göstərir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın göstərişi ilə regionda icrasına başlanılan layihəyə yerli mütəxəssislərlə yanaşı, xarici ekspertlər də dəvət olunublar. O cümlədən bərpa prosesinə Avstriya, Böyük Britaniya, Bolqarıstan, İtaliya, Latviya, Rusiya, Türkiyə, Gürcüstan və digər ölkələrdən mütəxəssislər cəlb edilib. Heydər Əliyev Fondunun işğaldan azad olunan ərazilər üzrə layihəsinin icrası üçün xüsusi işçi qrupu yaradılıb və bərpa olunacaq abidələrin öyrənilməsi məqsədilə ilkin qiymətləndirmə aparılıb. Bərpa işləri dini mənsubiyyətindən asılı olmayaraq bütün abidələri əhatə edir. Abidələrin yenidən qurulması zamanı onların ilkin, yəni autentik simasının pozulmaması prinsipi əsas götürülür. Artıq bir sıra layihələr uğurla tamamlanıb, digərlərinin icrası isə intensiv şəkildə davam etdirilir.

*Mübariz FEYİZLİ*

# Münasibətlərimiz qarşılıqlı hörmət əsasında inkişaf edir

## Sloveniya şirkətləri işğaldan azad olunmuş ərazilərin bərpasında iştirak edə bilər

**Azərbaycanın xarici siyasətində Avropa ölkələri ilə əlaqələr önəmli yer tutur. Bu baxımdan, ölkəmiz Sloveniya ilə də əməkdaşlığı genişləndirir. Sloveniya Baş nazirinin müavini, xarici işlər və Avropa məsələləri naziri Tanya Fayonun Azərbaycana səfəri ölkələrimiz arasında münasibətlərin inkişafının göstəricisidir.**





### Diplomatik münasibətlərin 30 illiyi qeyd ediləcək

Qeyd edək ki, aprelin 17-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Tanya Fayon ilə görüşüb. Təkbətək və geniş tərkibdə görüşlər zamanı Azərbaycan və Sloveniya arasında ikitərəfli münasibətlərin mövcud vəziyyəti, inkişaf perspektivləri, o cümlədən siyasi dialoqun intensivləşdirilməsi, yüksəksəviyyəli təmasların artırılması, müxtəlif sahələrdə əməkdaşlıq imkanları müzakirə olunub. Azərbaycan-Sloveniya münasibətlərinin dostluq, qarşılıqlı hörmət və faydalı əməkdaşlıq prinsiplərinə əsaslandığı vurğulanıb, 2026-cı ildə diplomatik münasibətlərin 30 illiyinin qeyd ediləcəyi diqqətə çatdırılıb. İkitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafı baxımından siyasi dialoq, yüksəksəviyyəli səfərlər, parlamentlərarası əlaqələr, iqtisadi və humanitar mübadilələrin böyük önəm daşıdığı vurğulanıb.

Tərəflər enerji, yaşıl texnologiyalar, nəqliyyat, İKT, kimya və əczaçılıq, turizm və digər sahələr üzrə əməkdaşlıq imkanlarını, eləcə də iqtisadi-ticarət əlaqələrinin, ticarət dövriyyəsinin genişləndirilməsi və artırılması üçün potensialı müzakirə ediblər. Təbii qaz və energetika sahəsində ötən il ərzində Azərbaycanın "SOCAR" və Sloveniyanın "Geoplin" şirkətləri, eləcə də iki ölkənin Energetika nazirlikləri arasında imzalanmış sənədlər xüsusilə qeyd olunub.

### Azərbaycan Sloveniyanın enerji təhlükəsizliyini təmin edir

Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-yenidənqurma prosesi, eləcə də beynəlxalq nəqliyyat dəhlizləri və Ələt Azad İqtisadi Zonası çərçivəsində əməkdaşlıq məsələlərinin Azərbaycan-Sloveniya əməkdaşlığı kontekstində böyük əhəmiyyət daşıdığı vurğulanıb.

Ceyhun Bayramov Tanya Fayona postmünaqişə dövründə bölgədəki vəziyyət, azad edilmiş ərazilərdə aparılan bərpa işləri, mina təhdidi ilə mübarizə və məcburi köçkünlərin qayıdışı barədə məlumat verib. Azərbaycan-Ermənistan sülh sazişi üzrə danışıqların hazırkı mərhələsi və bu prosesə mane olan amillər, xüsusilə də Ermənistanın konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarına istinadların mövcudluğu və artıq öz əhəmiyyətini itirmiş Minsk qrupu kimi təsisatların ləğv edilməsi məsələləri diqqətə çatdırılıb.

Söhbət zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər və beynəlxalq platformalarda əməkdaşlığın perspektivləri müzakirə olunub.




### Ermənistanla intensiv təmaslar davam etdirilir

Görüşdən sonra mətbuat konfransı keçirilib, nazirlər bəyanatla çıxış edərək, media nümayəndələrinin suallarını cavablandırıblar. Ceyhun Bayramov bildirib ki, Qarabağda və Şərqi Zəngəzurda Sloveniya şirkətləri üçün də əməkdaşlıq imkanlarının mövcud olduğunu düşünürük. O, Qarabağda və Şərqi Zəngəzurda aparılan yenidənqurma və bərpa işləri barədə sloveniyalı nazirə ətraflı məlumat verildiyini diqqətə çatdıraraq əlavə edib: "Azərbaycanın təbii qazı artıq Sloveniyaya çatdırılır. Bugünkü biznes-forum çərçivəsində konkret layihələr ətrafında müzakirələrin aparılması planlaşdırılıb. Bəzi şirkətlər arasında ilkin razılaşmalara nail olunub".

Cənubi Qafqazda vəziyyətə gəlincə, C.Bayramov deyib ki, Azərbaycan Ermənistanla dialoqun aparılmasının və məsələlərin müzakirə olunmasının tərəfdarıdır. Nazir qeyd edib ki, son illərdə Ermənistanla intensiv təmaslar davam etdirilir: "Antalya Diplomatiya Forumu çərçivəsində Ermənistanın xarici işlər naziri ilə görüşüm oldu və mən bu görüşü kifayət qədər faydalı hesab edirəm. Hərçənd ki, belə görüşlər məsələlərin tam həllinə gətirib çıxarmasa da, tərəflərin fərqli mövqelərinin və arqumentlərinin qarşılıqlı şəkildə təqdim olunması baxımından əhəmiyyətlidir. Həmin görüş də məhz bu baxımdan faydalı oldu".

Onun sözlərinə görə, Ermənistanla Azərbaycan arasında danışıqlar prosesində əsas istiqamətlərdən biri sərhədlərin delimitasiya və demarkasiyası, eləcə də bu sahədə dövlət komissiyalarının fəaliyyətidir. Nazir bildirib ki, son illərdə Ermənistanla aparılan intensiv təmaslar çərçivəsində bu istiqamətdə əhəmiyyətli irəliləyişlər əldə olunub. O, 2024-cü ili bu baxımdan yaddaqalan il kimi dəyərləndirib: "İlk dəfə olaraq danışıqlar nəticəsində razılıq əldə olundu və 1990-cı illərin əvvəlindən Ermənistanın işğalı altında olan Qazax rayonunun 4 kəndinin azad olunması prosesi həyata keçirildi. Dövlət komissiyaları arasında təmaslar davam edir və bu prosesin qarşıdakı aylarda da davam edəcəyi gözlənilir. Azərbaycan, ümumilikdə bu prosesə nikbin yanaşır".

### Kommunikasiyalaran açılması ilə bağlı hələ razılıq yoxdur

Azərbaycanın XİN başçısı əlavə edib ki, digər mühüm məsələ iki ölkə arasında nəqliyyat əlaqələrinin bərpasıdır: "Azərbaycanın qərb bölgələri ilə Naxçıvan arasında maneəsiz keçidin təmin olunması məsələsi də uzun müddətdir danışıqların mövzusudur. Təəssüf ki, bu istiqamətdə hələlik konkret nəticə əldə olunmayıb. Azərbaycan bu məsələdə irəliləməyə hazırdır, lakin Ermənistan razılaşmanın icrasını hələ də həyata keçirməyib. Ümumilikdə, kommunikasiya xətlərinin açılması ilə yanaşı, qərb bölgələri ilə Naxçıvan arasında birbaşa əlaqənin bərpası bizim üçün xüsusi əhəmiyyət kəsb edir".

Tanya Fayon isə qeyd edib ki, Sloveniya Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olmasında maraqlıdır: "Sülh sazişi üzrə mətnin yekunlaşmasını alqışlayıram və hər iki tərəfi zəruri addımlar ataraq bu sənədi tezliklə imzalamağa çağırıram. Sülhün region üçün çoxsaylı faydaları olacaq. Bu, müxtəlif ticarət təşəbbüslərinin gerçəkləşməsinə şərait yaradacaq və həm region daxilində, həm də ondan kənarda müsbət nəticələr verəcək. Eyni zamanda, bu proses Şərqlə Qərbi birləşdirəcək mühüm kommunikasiya kanalı ola bilər".

*Nardar BAYRAMLI*

# Azərbaycan - Gürcüstan: Yüksək səviyyədə olan dövlətlərarası münasibətlər

Son vaxtlarda qonşu və dost dövlətlər olan Azərbaycanla Gürcüstan arasında siyasi dialoqun intensivliyi daha da artıb. Prezident İlham Əliyev bir neçə gün bundan əvvəl Bakıda ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda çıxışı zamanı Gürcüstanla münasibətlərin ölkəmiz üçün strateji əhəmiyyət daşıdığına xüsusi diqqət çəkdi. Bunun ardınca Antaliya Diplomatiya Forumunda Prezident İlham Əliyev ilə Gürcüstanın Baş naziri İrakli Kobaxidze arasında görüş baş tutdu və qonşu ölkənin yüksəksəviyyəli rəsmisi də respublikamızla münasibətlərin dərinləşməsinin böyük önəmini vurğuladı.

Aprelin 16-da isə Gürcüstanın altıncı Prezidenti Mixeil Kavelaşvili ölkəmizə rəsmi səfərə gəldi. Bu, onun ötən il dekabrın 14-də Prezident seçildikdən sonra ilk xarici səfəridir. Prezident İlham Əliyev bu səfəri Gürcüstan-Azərbaycan əlaqələrinin mahiyyətinin, xalqlarımızın dostluğunun, qardaşlığının göstəricisi kimi dəyərləndirib: "...Adətən seçkilərdən sonra birinci səfər rəmzi xarakter daşıyır və bu səfər Azərbaycana edilib. Eyni zamanda, Gürcüstanın Baş naziri də seçkilərdən sonra ilk rəsmi səfərini Azərbaycana edib. Yəni bu, artıq gözəl ənənəyə çevrilib".

## Regional əməkdaşlığa gözəl nümunə

Azərbaycan - Gürcüstan münasibətləri regional əməkdaşlığa gözəl nümunədir. Prezident İlham Əliyevin bildirdiyi kimi, əsrlər boyu bizim xalqlarımız sülh, mehribanlıq, qardaşlıq şəraitində yaşamışlar. Bu gün də bu, belədir. Dövlətlərarası münasibətlər də yüksək səviyyədədir. Öz növbəsində Mixeil Kavelaşvili də mətbuata bəyanatında iki qonşu dövlət arasında münasibətlərin nümunəvi olmasından məmnunluğunu bildirərək bunu şərtləndirən amillərə diqqət çəkib. Sitat: "Bizim dostluğumuz qarşılıqlı hörmətə və bir-birimizin milli maraqlarının nəzərə alınmasına əsaslanır. Biz münasibətlərdə güvənməyin nə qədər vacib olduğunu başa düşürük və sözümüzün dəyərini bilirik. Bizi xilas edən və bu günə çatdıran bir sıra yazılmamış qanunlarımız, dəyərlərimiz var. Ona görə də Gürcüstan-Azərbaycan dostluğu və strateji tərəfdaşlığı bu qədər xüsusi və nümunəvidir".

Qısa müstəqillik tarixində Azərbaycan-Gürcüstan münasibətlərinin artıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi qürurverici haldır. Xatırladaq ki, 1996-cı il martın 8-də imzalanan "Azərbaycan Respublikası ilə Gürcüstan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında Müqavilə" ölkələrimiz arasında strateji tərəfdaşlığın təməlini qoyan sənəddir. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il noyabrın 18-də qurulub. İndiyədək ölkələrimiz arasında 125-dən çox sənəd imzalanıb. 1995-ci ildə Gürcüstanın Azərbaycanda, bir il sonra isə Azərbaycanın bu ölkədə səfirliyi fəaliyyətə başlayıb. Həmçinin 2009-cu ildə Azərbaycanın Gürcüstanın Batumi şəhərində baş konsulluğu, 2013-cü ildən etibarən isə Gəncə şəhərində Gürcüstanın baş konsulluğu açılıb.

Azərbaycan ilə Gürcüstan arasında beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək təcrübəsi var. Hər iki dövlət bir-birinin ərazi bütövlüyünə dəstək verir və beynəlxalq təşkilatlarda əlaqələndirlmiş fəaliyyətlər həyata keçirirlər. Eyni zamanda, həm Azərbaycan, həm də Gürcüstan Cənubi Qafqaz coğrafiyasında sülh və sabitliyin bərqərar olmasının tərəfdarıdırlar. "Təbii olaraq siyasi əlaqələr inkişaf edir. Yüksəksəviyyəli təmaslar müntəzəm xarakter daşıyır, siyasi dialoq fəaldır. Yəni iki dost, qardaş ölkə, sözün əsl mənasında, bir-birinə çox bağlıdır və beynəlxalq təşkilatlarda da daim bir-birini dəstəkləyir", - deyə Prezident İlham Əliyev vurğulayıb.






## Birgə reallaşdırılan regional və qlobal əhəmiyyətli layihələr

Azərbaycan və Gürcüstan aralarındakı siyasi dialoqun, etimad mühitinin yüksək səviyyəsinə uyğun olaraq bir sıra nəhəng enerji və nəqliyyat layihələrini digər tərəfdaş dövlətlərin iştirakı ilə uğurla reallaşdırmağa nail olublar. Bu layihələr ikitərəfli münasibətlərə, regionun transformasiyasına güclü təkan verməklə yanaşı, həm də daha geniş coğrafiya üçün mühüm əhəmiyyət daşıyır. "Azərbaycanın və Gürcüstanın birgə həyata keçirdiyi neft-qaz layihələri, neft-qaz kəmərləri, nəqliyyat, kommunikasiya layihələri, sözün əsl mənasında, böyük əhəmiyyət daşıyan layihələrdir və nəinki Cənubi Qafqazın, Avrasiya regionunun nəqliyyat və enerji xəritəsini yenidən tərtib edən layihələrdir. Əgər biz bu gün Avropanın enerji təhlükəsizliyi haqqında danışırıqsa, bunu Azərbaycansız, Gürcüstansız təsəvvür etmək mümkün deyil", - deyə Prezident İlham Əliyev bildirib.

İndiyədək iki dost ölkə qardaş Türkiyə ilə birlikdə Bakı-Tbilisi-Supsa, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Ceyhan, Cənub Qaz Dəhlizi kimi transmilli enerji layihələrini reallaşdırmağa nail olublar. İndiki geosiyasi reallıqlar şəraitində Avropanın enerji təhlükəsizliyini bu layihələrdən kənarda təsəvvür etmək çətindir. Hazırda Azərbaycan Gürcüstan da daxil olmaqla 12 ölkəyə təbii qaz ixrac edir. Bu ixrac Gürcüstan vasitəsilə həyata keçirilir.

Nəqliyyat-tranzit seqmentini ikitərəfli əməkdaşlığın ən vacib istiqamətlərindən biri kimi dəyərləndirə bilərik. Bakı-Tbilisi-Qars dəmir yolunun tam gücü ilə işə salınması üçün birgə səylər göstərilib. Belə ki, Azərbaycanın əlavə sərmayəsi və Gürcüstan tərəfinin səyləri nəticəsində bu yolun yükaşırma qabiliyyəti 1 milyon tondan 5 milyon tonadək artırılıb.

Orta Dəhlizin mühüm halqası olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyətinin ildə 15 milyon tondan 25 milyon tona qədər artırılması istiqamətində fəal işin aparılır. Dövlətimizin başçısının bildirdiyi kimi, nəqliyyat-kommunikasiya sahəsində əldə olunmuş nailiyyətlər, yeni inşa edilmiş dəmir yolları, limanlar həm Azərbaycanda, həm də Gürcüstanda böyük sinergiya yaratmış və əslində, Orta Dəhlizin ayrılmaz hissəsinə çevrilmişdir. "Əgər bu gün biz Cənubi Qafqazda Orta Dəhliz layihəsindən danışırıqsa, bu, Azərbaycandan və Gürcüstandan keçən dəhlizdir. İldən-ilə ölkələrimizin ərazisindən keçən yüklərin həcmi artır və bu yüklərin həcminin artırılması üçün əlavə addımlar atılır", - deyə Prezident İlham Əliyev vurğulayıb.

***Mübariz ABDULLAYEV***

# Sülh sazişi üçün zəmin...

## Ermənistan konstitusiyanı dəyişməli, ATƏT-in Minsk Qrupu ilə bağlı mövqeyini qətiləşdirməlidir

## İrəvan bu şərtləri qısa zamanda yerinə yetirərsə...

Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması Cənubi Qafqazın həyatında yeni - sabit və inkişafa yönəlik dövrün başlama perspektivini formalaşdırır. 3 ildən artıqdır davam edən və özünün məntiqi nəticəsinə çox yaxın olan sülh prosesi yeni iqtisadi-siyasi nizamın mühüm ştrixlərindən birinə çevrilə bilər - məhz imzalanacaq sülh Cənubi Qafqazın yeni dönəmdə stabil və sabit məkan kimi inkişafına yol açacaq, qlobal layihələrdəki iştirakımızı rəsmiləşdirəcək. Bir sözlə, Azərbaycanın təşəbbüskarı və müəllifi olduğu sülh layihəsinin prioritet istiqamətləri həm də Cənubi Qafqaz üçün inkişaf tempi perspektivi vəd edir. Sülhün imzalanması ilə Azərbaycan dünyanın yeni iqtisadi münasibətlər sistemində özünəməxsus yerə malik olan Cənubi Qafqaz üçün yeni inkişaf mərhələsi formalaşdırır.

Münasibətlərin normallaşması istiqamətində davam edən proses nəticəyə yaxınlaşır - hər iki tərəf sənədin detalları ilə bağlı tam razılıq əldə ediblər. Hətta bir müddət fikir ayrılığı yaşanan maddələr də iki aydır ki, öz həllini tapıb. İllərdir özünün qeyri-konstruktiv mövqeyi ilə regionda sülhün və təhlükəsizliyin təmin olunmasına maneçilik törədən, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyən Ermənistan tərəfi də artıq sülh anonsları səsləndirir. Bu, rəsmi İrəvanın artıq Azərbaycanın regionda yaratdığı yeni siyasi-iqtisadi reallıqları qəbul etməsi kimi dəyərləndirilsə də, bu ölkənin manipulyativ mahiyyəti kənara qoyula bilməz. Düzdür, ilk baxışdan görünən budur ki, İrəvan yaranan siyasi-iqtisadi reallıqların sülhü və əməkdaşlığı aktuallışdırdığını anlayır - belə bir iqtisadi platforma isə indiki zamanda Ermənistan üçün hava-su kimi lazımlıdır. Sosial problemlərin əsirinə çevrilmiş bu ölkə Azərbaycanın ona tanıdığı imkandan maksimum bəhrələnməli, özünün yeni inkişaf mərhələsini formalaşdırmalıdır. Bunun üçün isə sülhün həm əbədi, həm də dayanıqlı olması üçün son addımlar atılmalıdır.





## Sülhün imzalanması üçün...

Nəticə etibarı ilə sülh zəmini üçün tələb edilən iki addım atılmalıdır - Ermənistan tərəfi həm Konstitusiyasında müvafiq dəyişikliyi etməli, həm də ATƏT-in Minsk Qrupundan birmənalı şəkildə imtina etməlidir. Konstitusiya məsələsi artıq bir neçə ildir ki, müzakirə predmetidir. Ermənistanın Müstəqillik Bəyannaməsi əsasında yazılan konstitusiya 1995-ci il iyulun 5-də qəbul edilib. Ermənistanın Müstəqillik Bəyannaməsinin preambulasında "Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1 dekabr 1989-cu il tarixli "Ermənistan SSR-ə yenidən birləşmək haqqında" birgə qondarma qərardan bəhs olunur. Yəni rəsmi olaraq Ermənistan hələ də 4.4 min kv km-lik Azərbaycan torpağına iddia ortaya qoyur.

Azərbaycanın məsələyə münasibəti birmənalıdır. Dayanıqlı sülh yalnız və yalnız Ermənistanın əsas sənədində dəyişiklik edildikdən sonra imzalanacaq. Artıq bir müddətdir ki, Ermənistanda Konstitusiya dəyişikliyi ilə bağlı məsələ müzakirə olunur. Qeyd edək ki, Ermənistanın ayrı-ayrı şəxsləri bu dəyişikliyin həm zəruri, həm də vacib olduğunu dəfələrlə dilə gətirib - baş nazir Nikol Paşinyan, XİN rəhbəri Ararat Mirzoyan öz müsahibələrində etiraf ediblər ki, bu məsələ öz həllini tapmalıdır.

Məsələnin isə bir həlli var - Konstitusiyada yer alan bu əsassız iddiaların aradan qaldırılması. Bunun üçün isə Ermənistanda müvafiq addımlar atılmalıdır. Prezident İlham Əliyev də son çıxışlarında bildirib ki, Ermənistan konstitusiyasında Ermənistanın müstəqillik aktına istinad var. O, konstitusiyanın tərkib hissəsidir. Orada isə Azərbaycanın hüquqi, tarixi ərazisinin Ermənistanla birləşməsi haqqında müddəa var və bu, bizə qarşı açıq ərazi iddiası sayılır: "Ona görə Ermənistan konstitusiyasından bu bəndin çıxarılması bizim legitim tələbimizdir. Bu iki şərt təmin ediləndən sonra sülh müqaviləsini imzalamaq üçün heç bir maneə olmayacaq. Necə deyərlər, top Ermənistanın tərəfindədir. Əgər doğrudan da Ermənistan sülh müqaviləsini imzalamaq istəyirsə, Azərbaycanın bu iki legitim şərtini qəbul etməlidir".

## Paşinyandan Konstitusiya etirafı...

Ermənistan tərəfi isə bu məsələdə hələ də aydın mövqe ortaya qoymur. Düzdür, bu və ya digər şəkildə dövlətin siyasi rəhbərliyi Azərbaycanın tələblərini dilə gətirir və dolayısı ilə bunun hüquqi cəhətdən haqlı bir tələb olduğunu etiraf edir. Hətta Nikol Paşinyan son çıxışlarının birində bildirib ki, Bakının konstitusiya tələbini bir sıra ekspertlərin düşündüyü kimi, sülh sazişini imzalamamaq üçün bəhanə yox, səmimi narahatlıq kimi qəbul etmək lazımdır. Amma hökumət başçısı məsuliyyəti də Ermənistan Konstitusiya Məhkəməsinin üzərinə qoyub. "Məhkəmə konstitusiyasının mətninin rəsmi şərhini verə bilər, yəni Konstitusiya Məhkəməsi Ermənistan konstitusiyasında nələrin olduğunu və nələrin olmadığını rəsmi şəkildə deyə bilən orqandır", - baş nazir bildirib

Bununla belə, Paşinyan etiraf edir ki, Ermənistanın yeni konstitusiyasının mətnində Müstəqillik Bəyannaməsinə istinad olmamalıdır. O qeyd edib ki, "mənim fikrimcə, yeni konstitusiyanın mətnində Müstəqillik Bəyannaməsinə istinad olmamalıdır. Lakin qərarı Ermənistan xalqı verməlidir. "Lehinə" və ya "əleyhinə" arqumentlərini siyasi qüvvələr və onların liderləri təqdim etməlidirlər. Bu mənim siyasi mövqeyimdir".

Beləliklə, Ermənistan başa düşür ki,sülh üçün bu şərtin yerinə yetirlməsi zəruridir. Çünki Ermənistan konstitusiyasından bəyannaməyə istinadı aradan qaldırmadıqca gələcək illərdə yenidən revanşizm arzusuna düşə bilər. Beləliklə də, vəziyyət yenidən gərginləşər. Bunun baş verməməsi üçün Ermənistan konstitusiyasındakı Azərbaycan torpaqlarına rəsmi iddiaların hər biri aradan qaldırılmalıdır.

## Minsk Qrupunun ləğvi...

Paralel olaraq eyni məsələni ATƏT-in Minsk Qrupu ilə bağlı demək olar. Azərbaycan haqlı olaraq bildirir ki, Qarabağ münaqişəsinin bitməsi Minsk Qrupunun da fəaliyyətini yekunlaşdırır. ATƏT-in Minsk Qrupu münaqişənin tənzimlənməsində vasitəçi mexanizm kimi formalaşdırılmışdı. Artıq "Qarabağ münaqişəsi" adlı bir mövhum mövcud olmadığı üçün, belə bir "vasitəçi mexanizmə" də ehtiyac qalmır. Azərbaycan ilə Ermənistan arasındakı münasibətlər qlobal gündəliyi maraqlandıran bir məsələ deyil, ikitərəli kontekstdə həll olunan bir məsələdir - nəticə etibarı ilə, ATƏT-in Minsk Qrupunun mövcudluğuna real olaraq ehtiyac duyulmur.

Ermənistan isə bu məsələdə də ləng davranır. Halbuki, bunu yerinə yetirmək daha asandır. Bu və ya digər şəkildə dövlətin müvafiq strukturları bununla bağlı qərar verib elan edə bilərlər. Ermənistan isə başqa bir yol tutur. Daha doğrusu, XİN rəhbəri təkliflə çıxış edir. Ermənistan xarici işlər naziri Ararat Mirzoyan Azərbaycan tərəfinə iki sənədin eyni gündə imzalanması ilə bağlı təklifini bir daha səsləndirib. Bu barədə o, sloveniyalı həmkarı ilə birgə keçirdiyi mətbuat konfransında danışıb. Mirzoyan Azərbaycanın sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü şərtlərdən biri kimi ATƏT-in Minsk Qrupunun buraxılması ilə bağlı tələblərinə münasibət bildirib. Nazir qeyd edib ki, əslində Ermənistan və Azərbaycanın mövqeləri məlumdur: "Biz Antalyada bir qədər irəliləməyə çalışdıq. Amma hər hansı qərarın əldə edildiyini demək şişirtmə olardı. Lakin müzakirələri davam etdirmək lazımdır".




Onun sözlərinə görə, əgər de-fakto başa çatmış münaqişə de-yure olaraq sülh müqaviləsi ilə təsdiqlənərsə, artıq Minsk Qrupu formatına ehtiyac qalmayacaq. Hətta münaqişənin nizamlandığı və sənədin imzalandığı şəraitdə belə bu format əks təsir göstərə bilər. Mirzoyanın bildirdiyinə əsasən, buna görə də İrəvan bir gündə - istənilən ardıcıllıqla - həm sülh müqaviləsinin, həm də ATƏT-in Minsk Qrupunun buraxılması ilə bağlı müraciətin imzalanmasını təklif edir.

***SADİQ***

# Mir Cəlal Paşayev - Ədəbi kimliyi, elmi-nəzəri düşüncəsinin miqyasları ilə

**XX əsr milli ədəbi-bədii fikir tarixinin görkəmli nümayəndəsi, yazıçı Mir Cəlal Paşayev Azərbaycan ədəbiyyatının inkişafı və onun məzmunca zənginləşməsində mühüm rol oynamışdır. Xalq yaradıcılığı ilə klassik bədii irsin qabaqcıl ənənələrinin vəhdətini yeni formada yaşadan və ədəbiyyata həyat gətirmiş yazıçı kimi tanınan Mir Cəlal Paşayev, eyni zamanda, görkəmli tədqiqatçı alim olmuşdur.**

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bizdə milli dövlətçilik ideyasının tarixi uzağa getməsə də, milli mənlik şüurunun yaranmasının aspektləri bədii düşüncəyə söykənir. XIX əsrin sonu, XX əsrin əvvəlləri milli oyanış dövrü kimi səciyyəvidir. Qərbə inteqrasiya, Şərqi geri salan səbəblər, azad və milli düşüncənin hasilə gəlməsi və s. Bu dövrdə bütün diqqət milli təfəkkürün və məfkurə istiqamətinin düşüncədə və əməldə ifadəsinə nail olmağa yönəlmişdi. Bu mənada, Azərbaycan Xalq Cümhuriyyəti bir tarixi, ideoloji və siyasi fakt olaraq yalnız tarixi şəraitin məhsulu deyil, XIX əsrin sonu XX əsrin əvvəlləri boyu davam edən milli siyasi, ədəbi və fəlsəfi düşüncənin nəticəsidir. O dövrdə, sanki hədəflər də, tədqiq predmətləri də eyni idi. Diqqət edək, Axundzadənin "Kəmalüddövlə məktubları", Hüseynzadənin "Siyasəti fürusət", Ağaoğlunun "Üç mədəniyyət" əsərlərinin hər birində milli oyanış amili, Şərqin məzlumluğunun kökündə duran məsələlər, Qərbin hansı cəhətlərindən yararlanmağın konturları dəqiq göstərilirdi.

Sonra sovet dövrü hakim oldu. İdeoloji təhriflər, faktın bilərəkdən yanlış yozumlanması, tarixi yaddaşın pozulmasına cəhdlər, milli-mənəvi dəyərlərin sıradan çıxarılması və s. Bu dövrdə az qism ziyalılar öz ədəbi kimlikləri ilə sənətin yaradıcı impulsunu qoruyub saxlamağa müvəffəq oldu, həm yeni dövr, həm də özü ilə mübarizədən qalib çıxdılar. Onların arasında görkəmli yazıçı, alim Mir Cəlalın yeri və mövqeyi ayrıca qeyd olunmalıdır.

1920-30-cu illərdən başlayaraq ədəbiyyat cəmiyyət həyatına təsir etmək baxımından aktiv fazaya daxil oldu. Öndə gedən ziyalıların əsas qismi ədəbiyyatın cəmiyyətə, daha çox alt qatlara, onların fikrinə, düşüncəsinə daha çox təsir eləmək imkanını duyaraq bundan faydalanmağa çalışdılar. Bu faydalanmaqda şəxsi mənfəətə xidmət etmək amili də vardı, xalq mənafeyi, ümumi dəyərlərin qorunması, onların gələcəyə bütöv və sağlam şəkildə ötürülməsi niyyəti də. Mir Cəlal ikincilərdən idi. O, publisistikası vasitəsilə mətbuatda çevikliyi, cariliyi təmin edirsə də, nəsri ilə duyğuları, emosionallığı, bədiiliyi öz gücündə saxlayır, əsərləri ictimai-siyasi ab-hava ilə bağlı ən aktual prosesləri cəmiyyətin alt qatlarına apara bilirdi. Bu kontekstdə görkəmli ədibin elmi-nəzəri araşdırmalarının də rolu az deyil. İstər klassik irslə bağlı meydana qoyduğu fundamental əsərlər, istərsə də dövrün cari ədəbi prosesinə verdiyi operativ reaksiyalarının yer aldığı məqalələri onun təksə ədəbiyyatın dərin bilicisi olduğunu meydana qoymur, eyni zamanda, milli təəssübkeşlik hissinin aliliyinə dəlalət edir. Mir Cəlalın nəsr və poeziya ilə bağlı yanaşmaları bu gün bizə sovet dövrünün mənzərəsini bütün mürəkkəbliyi ilə anlatmaqla bərabər, həm də məlum bir həqiqətin üzərinə işıq salır: əsl sənətkar bütün hallarda öz doğma xalqının oğludur, onun dəyərlərini və meyarlarını zamanın sərt sınaqlarından, sərt aşamalarından bütöv və zədəsiz çıxara bilədir.

Azəraycan nəsrinin tarixini, təkamülünü araşdıran, tədqiq edən alimlərin cərgəsində Mir Cəlalın özünəməxsus yeri var. Onun elmi-nəzəri yaradıcılığında nəsrlə bağlı əldə etdiyi qənaətlər nəsrin təkamül yolu və qazandığı poetik xüsusiyyətlərin, apardığı poetik axtarışların nəsr nümayəndələrinin yaradıcılığında müxtəlif təzahürləridir ki, bu gün ətraflı araşdırılmağa, tədqiq edilməyə imkan verir.

Mir Cəlal nəsrimizin inkişaf yolunu müxtəlif yazıçıların (İ.Qutqaşınlı, A.Bakıxanov, M.F.Axundov, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, N.Nərimanov, M.Hüseyn və s.) yaradıcılıqları əsasında təhlil edən tədiqatçı kimi bununla bağlı çox əhəmiyyətli qənaətlər əldə etmişdir. Bu qənaətlərə müxtəlik elmi məqalələrində də, tənqidi yazılarında da rast gəlmək olar. Məsələn, onun "Klassik nəsrimiz haqqında" məqaləsində qeyd edilir ki, "daha qədim zamanlarda, Nizami dövrünə aid əlimizdə heç bir yazılı nəsr əsəri yoxdursa, XVI əsrdə dahi Füzulinin qüvvətli nəsr əsərləri göstərir ki, Füzuli zamanında Azərbaycanda işlənmiş, bədii və ədəbi cəhətdən formalaşmış, original stil qəbul etmiş bədii nəsr var imiş".

Bu fakt ədəbiyyatşünaslıq tariximizdə dəfələrlə təsdiqini tapıbdır. Belə ki, Mir Cəlal kimi nəsrimizin tarixini Füzuli dövrü ilə əlaqələndirən digər alimlərimiz də vardır. Məsələn, Hidayət Əfəndiyev də "Azərbaycan bədii nəsrinin tarixindən" kitabında nəsrin tarixinin yazılı ədəbiyyatda Füzulinin əsərləri ilə bağlanıldığını qeyd edir və ilk nəsr nümunələri kimi onun "Həqiqətüs-süəda" və "Şikayətnamə"sini təhlilə çəkir. Lakin bu zaman obyektiv olaraq ortaya çıxan bir suala - "nə üçün nəsrin ilk nümunələrinin yarandığı bu tarixi dövrdən sonra bu qədər boşluq olub" sualına Mir Cəlalın gəldiyi qənaət əsaslı bir cavab kimi səslənməkdədir.

O, nəsrin orta əsrlərdə və ondan sonra hələ uzun müddət inkişaf etməməsinin səbəbi kimi tək Şərqdə nəsrə "əsil ədəbiyyat" kimi baxılmadığını, "söz sənətində ancaq şeir yazmağın hünər sayıldığını" qeyd edirdi. Bu fikirlər həqiqətən də məntiqlidir. Hər halda, Şərq ədəbiyyatında poeziyanın, Qərb ədəbiyyatında isə nəsrin uzun əsrlər boyu hakim mövqedə olması, ədəbiyyat tariximizdə poeziyanın bu qədər şaxələnmiş, dərinlərə kök atmış bir şəkildə mövcudluğu, hətta şifahi xalq ədəbiyyatında da şeir formalarının daha rəngarəng olması faktı belə bu müddəanın təsdiqi kimi çıxış edə bilər.

Orta əsrlərdə inkişaf edə bilməyən, hətta XIX əsrdə belə çox müraciət edilən forma olmayan nəsr XX əsrin əvvəllərindən başlayaraq ədəbiyyatımıza əsaslı şəkildə, çoxjanrlı formada daxil oldu və öz yerini illər keçdikcə daha da möhkəmləndirməyə başladı. Hərçənd ki, əsrin ilk onilliklərində "ən çox inkişaf etmiş, ən geniş yayılmış ədəbi janrları publisistika və dramaturgiyadır", - yazan Nizami Cəfərov milli, yaxud ənənəvi janrları sürətlə sıxışdıran, arxa plana keçirən bu "qeyri-milli mənşəli" janrların Azərbaycan təfəkkürünə çoxdan deyil, XIX əsrin ortalarında gəlməsi faktını xüsusi olaraq vurğulayır və dramaturgiya ilə publisistikanın əsrin əvvəllərində yaşarılığının və qoşa addımlamasının səbəblərindən biri kimi bir faktı qeyd edirdi: "Onu da nəzərə almaq lazımdır ki, haqqında söhbət gedən mərhələnin dramaturqlarının əksəriyyəti həm də publisist idi: Cəlil Məmmədquluzadə, Əbdürrəhimbəy Haqverdiyev, Hüseyn Cavid...".



Amma o da faktdır ki, daha sonrakı illərdə publisistika nisbətən zəifləməyə başlayır, əvəzində nəsr daha geniş formada dövriyyəyə girir. Bu məsələdə əlbəttə ki, ictimai-siyasi proseslərin öz rolu vardı. Məsələn, əsrin əvvəllərində "səsi bərk çıxan" "Molla Nəsrəddin"in bir müddət keçdikdən sonra, xüsusilə sovet ideologiyasının gücləndiyi dövrdə birdən-birə susdurulması, mətbuatın demokratik ab-havasının yoxa çıxması əsassız deyildi və meydandan gedən demokratik mətbuat publisistikanın zəifləməsinin əsas nədənlərindən biri kimi mütləq nəzərə alınmalıdır.

Beləliklə də, nəsrin tarixini izləyən bütün tədqiqatçılar müasir nəsr anlamına yaxın ilk nümunələri arasında İ.Qutqaşınlının, A.Bakıxanovun, M.F.Axundovun əsərlərini xüsusi olaraq qeyd edirlər, lakin bu bir faktı dəyişmir ki, onun təkamül prosesi, inkişaf mərhələsi məhz XX əsrin ilk illərindən başlayır.

Bu baxımdan XX əsrin nəsrinin müxtəlif mərhələləri, müxtəlif ideoloji təsirləri adlayaraq, müxtəlif poetik dəyişikliklərə uğrayaraq bu günümüzə qədər gəlib çatdığını qətiyyətlə söyləmək olar. Onun təşəkkül dövrünün böyük bir hissəsini "sovet ədəbiyyatı" dövrü kimi təhlil etməli olsaq belə, bu fakt nəsrin əldə etdiyi nə ideya-estetik xüsusiyyətləri, nə də poetik çalarları dəyişmir. Hərçənd ki, sovet yazıçısının qarşısına mövzu, ideya, məzmun, qəhrəman, xarakter, tip baxımından konkret tələblərin qoyulması nəsrin inkişaf yolunda əsaslı maneələr oldu və məhz bu maneələrin nəticəsində müəyyən mərhələlərdə yaranmış nəsr nümunələri ədəbiyyat tarixində bədii mətn deyil, yalnız ad, yalnız imza olaraq qalacaq. Amma yenə də bu faktlar XX əsr nəsrinin özünəməxsusluğunun, əhəmiyyətinin, poetik baxımdan gözəl nümunələrinin dəyərləndirilməsinə mane olmamalıdır.

Mir Cəlalın elmi-nəzəri irsində XX əsr nəsrinin təhlili, dəyərləndirilməsi, realist nəsr nümunələrinə xüsusi olaraq diqqət yetirilməsi əsas əhəmiyyət kəsb edən istiqamətlərdəndir. Onun elmi araşdırmalarında Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyevin, Nəriman Nərimanovun, Məmməd Səid Ordubadinin, Abdulla bəy Divanbəyoğlunun, Abdulla Şaiqin, Süleyman Sani Axundovun nəsrinin poetik xüsusiyyətləri, bu nəsr nümunələri vasitəsilə XX əsr nəsrinin əldə etdiyi poetik yeniliklərin geniş təhlili aparılmış, əsaslı elmi qənaətlər əldə edilmişdir. Ümumiləşdirmə aparmalı olsaq, qeyd etməliyik ki, Mir Cəlalın elmi-nəzəri irsində XX əsrin nəsri iki mərhələdə - 30-cu illərə qədər və 30-cu illərdən sonrakı mərhələdə tədqiq edilibdir. Bu tədqiqatların elmi-nəzəri sanbalı, əhatə genişliyi, əldə edilmiş elmi nəticələrin obyektivliyi və elmi dəyəri bu günün prizmasından dövrü xarakterizə etməyə imkan verir, amma ondan daha çox alimin özünün obrazına layiqli status qazandırır. İlk növbədə o səbəbdən ki, Mir Cəlalın elmi-nəzəri dəyərləndirməsində nə dərəcədə siyasi ideologiyaya əsaslanma faktı olsa da, onun tədqiqatlarında konkret ədəbi mətnin, ədəbi-tarixi prosesin, konkret olaraq hansısa tədqiqat predmetinin, problemin təhlili daha əsaslı yeri tutur.

Ümumilikdə, Azərbaycan nəsri və onun poetik axtarışlarından danışarkən Mir Cəlalın elmi-nəzəri yaradıcılığında 30-cu illərə qədər yaranmış nümunələr, C.Məmədquluzadə, Ə.Haqverdiyev, N.Nərimanov, A.Şaiq, S.S.Axundov kimi yazıçıların yaradıcılıqları və bu irsin əsasında nəsrin meydana çıxan poetik xüsusiyyətləri daha obyektiv şəkildə təhlilə çəkilə bilir. O, "Mirzə Cəlil qısa, mənalı, psixoloji hekayənin böyük ustasıdır", - yazanda da, "Mirzə Cəlilin hekayələrində bir bitkinlik, müxtəsərlik, yığcamlıq vardır ki, bütün klassik nəsrimizdə davam və inkişaf etdirilməkdədir. Bu hekayələr bəzən böyük bir roman qədər mənalı, əhatəedici və güclüdür", - qənaətinə gələndə də, Mirzə Cəlilin bədii təsvirdə hadisə, fakt və insanları müqayisə üsulundan istifadə etməyini çox sevdiyini yazaraq "Kontraslı lövhələr realizm üçün çox məqbul, münasib üsuldur. Rənglər, səslər, münasibət və görüşlər öz-özündən aşkara çıxır, aydınlaşır. ...Bu yaradıcılıq üsulundan ədib bütün janlarda (dram, nəsr, feleyton) istifadə etmişdir", - qənaətini verəndə də tək "Molla Nəsrəddin" məktəbinin yaradıcısının deyil, ümumilikdə, nəsrimizin poetik axtarışlarını təhlilə çəkir, bu problemə məhz, bir yaradıcılığın sferasından yanaşaraq ümumiləşdirmələr aparırdı. C.Məmmədquluzadə həm öz əsrinin "səciyyəvi tiplər silsiləsini yaratmış" nümayəndəsi kimi təhlil edilir, həm də bu cür tip yaradıcılığının, satiranın, tənqidin XX əsr nəsri üçün xarakterik bir xüsusiyyət olduğu göstərilirdi. Çünki eyni tip yaradıcılığı Ə.Haqverdiyevdə də vardı. Əsas olan isə bu idi ki, həmin "tip"ləri ədəbiyyata ötürən real şərait, real zəmin - o tipləri yetişdirən problemlərlə dolu cəmiyyət və canlandırılması üçün qismən də olsa azadlıq var idi.

Realist hekayə janrını Azərbaycan ədəbiyyatında "təzə hadisə" adlandıran Mir Cəlal onun cəmi bir əsrlik tarixi olduğunu yazaraq janr etibarilə də nəsrin formalaşma prosesini təhlilə çəkirdi: "...iyirminci əsrin əvvəllərində bizdə hekayə, xüsusilə realizmi təmsil və təcəssüm etdirən janr olmaq etibarilə əhəmiyyətli yer tuturdu".

Mir Cəlal C.Məmmədquluzadənin hekayələrini məzmununa görə iki yerə bölərək - portret və hadisə hekayəsi kimi təhlil edir və bununla da, XX əsr hekayəsinin poetik imkanlarını dəyərləndirmiş olurdu. Yaxud Haqverdiyevin nəsri ilə bağlı təhlillər apararkən onun simvolizm tərəfdarı olduğunu qeyd edir, lakin "sənət sənət üçündür" meylinə uymadığını vurğulayırdı: "Ədib simvoldan bir ədəbi məcaz, bir işarə, vasitə kimi istifadə etmişdir". Bununla belə, öz elmi-nəzəri mülahizələrində bu cür qeydləri etməklə, əslində Mir Cəlal o zaman mövcud olan bir fikri - realizmdən başqa heç bir cərəyanın, meylin olmadığı düşüncəsini bilərəkdən və ya bilməyərəkdən dağıtmış olurdu. Bu isə ədəbiyyat tarixində ədəbi məktəbləri və ədəbi cərəyanları araşdıran tədqiqatçılar üçün əhəmiyyətli bir təkan, impuls idi.

Mir Cəlalın apardığı bütün bu təhlillərdən bəlli olur ki, XX əsr nəsri əsrin əvvəllərində hekayə janrı ilə ədəbi təfəkkürdə özünə yer etməyə başlasa da, sonrakı mərhələ, 30-cu illərdən başlayaraq artıq roman yaradıcılığı üçün şərait yaradırdı. Amma bu şərait təəsüf ki, təbii təkamül prosesinin deyil, "kənar"dan diqtə edilən, "sosialist realizmi"ni yaradan, "hakim ideoloji" basqının təlabatı idi. "Sovet ədəbiyyatı" nəsri "yerlərdə" mütləq roman janrına adlamalı idi.

Mir Cəlal nəsrimizə yeni ayaq açmaqda olan roman janrını xarakterizə edərək "müasir və mütərəqqi ideyaların cürətlə təbliği, bədii forma gözəlliyi, maraqlı, sadə və təbii hekayə üsulu, hadisələrin müstəqim və sürətli inkişafı, tam və bitkin süjet, aydın xarakteristikalar, sağlam lirika, dildə canlılıq - romanın əsas bədii keyfiyyəti bunlardan ibarətdir", - yazır, roman janrı ilə bağlı yazıçılardan tələb edilən ictimai-siyasi "sifariş"in yerinə yetirilməsi üçün yazıçılara "ipucu" verirdi.

O, Nəriman Nərimanovun yaradıcılığını dəyərləndirərkən onun məhz romanını təhlil edir, ədibin realist ədəbiyyatın inkişafı tarixində əhəmiyyətli yer tutduğunu bildirir, əsərlərinin az olmasına baxmayaraq, məzmun və dəyər etibarilə önəmli olduğunu vurğulayırdı. Mir Cəlal "Bahadır və Sona"nı Azərbaycan roman janrının ilk nümunələrindən biri kimi dəyərləndirərək məhəbbət mövzusunda yazılmış əsərin zahirən Şərq ənənəvi sevgi dastanlarına ("Əsli və Kərəm", "Tahir və Zöhrə", "Xumar və Sənan", "Abbas və Gülgəz") yaxın olduğunu söyləyir və onu "keçmiş cəmiyyət üçün çox səciyyəvi bir faciə" kimi xarakterizə edirdi.

Yaxud XX əsr nəsrinin poetik axtarışlarını M.S.Ordubadinin yaradıcılığı əsasında dəyərləndirərək "Bu dövrdə Ordubadinin ən dolğun bədii əsəri, şübhəsiz ki, "Bədbəxt milyonçu, yaxud Rzaqulu xan firəngiməab" romanıdır", - yazır və əsərin qələmə alındığı dövrdə roman janrının Azərbaycan ədəbiyyatında yeni bir forma olduğunu söyləməklə onu bu sahədə ilk qələm təcrübələrindən biri kimi dəyərləndirməyin vacibliyini xatırladırdı: "XX əsrin əvvəllərinə qədər bizim ədəbiyyatda roman janrında yazan az olmuşdur. Ordubadinin özü dediyinə görə, 1907-ci ildə yazdığı bu roman həm bu cəhətdən, həm də Azərbaycanın ən qədim şəhərlərindən, mədəniyyət mərkəzlərindən olan Təbrizin həyat və məişətini, ictimai oyanma prosesinin ilk təsirlərini təsvir cəhətindən maraqlıdır. Ordubadi qismən səyahətnamələrə ("Səyahətnameyi-İbrahim bəy"), qismən silsilə məktublara ("Mirzə Fətəlinin fəlsəfi məkatubları"), tərcümeyi-hallara oxşadaraq, öz romanlarını müasir təbliği publisist əsərlər ruhunda yazmışdır" (126, 148).

Göründüyü kimi, Ordubadinin yaradıcılığı əsasında çıxarılan elmi qənaətlər XX əsr nəsrinin ilk mərhələdə mövcud olan poetik xüsusiyyətlərini aydınlaşdırmağa, keçdiyi təkamül prosesi zamanı hansı dəyişikliklərə uğradığını izləməyə imkan verir. Bu romanda mövcud olan "qismən səyahətnamə", "qismən silsilə məktublar", "qismən də tərcümeyi hala" oxşatma xüsusiyyətləri əslində, romanın sonrakı mərhələdə meydana çıxacaq formalarının ilk əlamətləri, ilk poetik xüsusiyyətləridir ki, artıq əsrin əvvəllərində fraqmentar şəkildə olsa da, özünü biruzə verirdi.

"Bədii nəsrimiz yeni mərhələdə" məqaləsində Mir Cəlal "müasir ədəbiyyatımızın ən qabaqcıl sahəsi bədii nəsr sayılırsa, bədii nəsrin də qabaqcıl sahəsi roman və povest sayılır. Bədii nəsrimiz gəncdirsə, bu epik şəkillərimiz ondan da gəncdir", - yazaraq o dövr üçün hələ yeni olan, bədii təfəkkürün hələ tam mənada qavramadığı, qəbul etmədiyi janrla bağlı təhlillər aparır, çıxardığı qənaətləri belə ümumiləşdirirdi: "Roman geniş xalq həyatını geniş əhatə etməli, nəinki şəxsin, ailənin, hətta nəsllərin də taleyini verməli olan böyük ədəbi şəkildir. Roman həm əsri, həm də günü, həm xalqın, həm də fərdin taleyini əks etdirir. Müəyyən dövrdə roman qəhrəmanının, hətta nəslin mükəmməl sərgüzəşti, tərcümeyi-halı deməkdir".

Məqalələrində Mir Cəlal dil məsələsini, dövrün meydana çıxardığı əsərlərdə dəyərləndirilməli olan əsas xüsusiyyət kimi qabardır və "indi ən mühüm məsələlərdən biri yalnız dil mədəniyyəti deyil, ümumən sənətkarlıq məsələsini bütün kəskinliyi ilə qoymaq, yazıçılarımızın diqqətini buna cəlb etməkdən ibarətdir", - yazır, bir zaman xalqımızı, mədəniyyət adamlarını narahat edən və Mirzə Cəlil, Mirzə Ələkbər Sabir, Nəriman Nərimanov, Cəfər Cabbarlı və Səməd Vurğun kimi qələm sahiblərinin "ömürlərinin çox hissəsini uğrunda mübarizəsinə sərf etdikləri" dil, xalq ruhu, xalq dili məsələsinin "indi ədəbiyyatımızda ən böyük tələb kimi qoyulur və həll olunur", - qənaətinə istinad nöqtəsi kimi yanaşmalı olurdu.

Mir Cəlalın yaradıcılığını təhlil etdiyi, üzərində dayandığı yazıçılardan biri Mehdi Hüseyndir. O, Mehdi Hüseynin yaradıcılığının təhlilinə ayrılıqda bir məqalə həsr edib. Lakin ümumi dəyərləndirmə apardığı "Bədii nəsrimiz yeni mərhələdə" məqaləsində o, "Abşeron" romanının müəllifi Mehdi Hüsenynin yeni romanından, "Qara daşlar"dan danışır. "Romanda sürətlə inkişaf etdirilən kəskin bir münaqişə" olduğunu qeyd edir, Bakı yaxınlığında neft kəşfiyyatı üzərində gedən və bütün diqqətləri toplayan əsas münaqişənin kolxoz kəndi ilə, ziyalıların həyatı ilə bağlandığını, "yalnız vətəndaşlıq duyğularını yox, həm də adamların fərdi həyatını, ailə-məişət və məhəbbət səhnələrini əhatə etdiyini" vurğulayır. Müxtəlif səhnələrin təsviri üçün iri həcmli parçalar sitat gətirməklə yenə də "Mehdi Hüseynin əsərində həyat həqiqətini qabarıq əks etdirən gərgin səhnələr çoxdur", - kimi qənaətlər səsləndirir.

Bir məqama diqqət çəkməyə dəyər. Mir Cəlalın üzərində dayandığı və təhlil etdiyi əsərlər ədibə nisbətən söz demək imkanı verən mətnlər idi. Məsələn, o müasir kəndimizin təsvirinə həsr olunmuş görkəmli əsərlərdən biri - Mirzə İbrahimovun "Böyük dayaq" romanı haqqında da qənaətlərini qeyd edirdi. "Burada yalnız təsərrüfat məsələləri deyil, xalq həyatı, ailə, ənənə, əxlaq, ümumən köhnəlik ilə yenilik arasındakı barışmaz mübarizə verilir. Romanda bir neçə xətt üzrə inkişaf etdirilən əhvalat bu mərkəzi sima ətrafında dolanır", - yazan tədqiqatçının yazı intonasiyasından, təhlil istiqamətindən də görünür ki, Mir Cəlal sovet dövrünün sərt qayda-qanunlarının işlək olduğu dövrlərdə belə mümkün qədər ədəbiyyat, sənətlə bağlı obyektiv elmi-nəzəri qanunauyğunluqlardan çıxış etməyə çalışıb. Axı dövr mürəkkəb idi, yazılan mətnlər adətən "sosialist realizmi"nin tələbləri çərçivəsində meydana qoyulduğundan tədqiqatçının səmimi fikir söyləməsini əngəlləyirdi. Lakin Mir Cəlal İsmayıl Şıxlının "Ayrılan yollar", Həsən Seyidbəylinin "Telefonçu qız", Əli Vəliyevin "Turaclıya gedən yol", Əyyub Abbasovun "Zəngəzur" əsərlərini əsərlərini təhlil predmetinə çevirəndə belə konkret qənaətlərdən çıxış edir, "bədii nəsrimizin yarıtmaz cəhətlərindən biri satira və yumorun zəifliyidir", - kimi cəsarətli qənaətlər səsləndirməkdən çəkinmirdi.

Akademik Nizami Cəfərovun qənaətlərinə istinad etsək, "yaddan çıxarmaq olmaz ki, 30-50-ci illər azərbaycançılıq dünyagörüşünün formalaşması tarixində mühüm mərhələ olmuş, ədəbiyyat həmin dünyagörüşü çox fəal şəkildə təbliğ etmişdir. ... haqqında söhbət gedən tarixi şəraitdə Azərbaycanın mənəvi müstəqilliyi barədə düşünmək belə az şey deyildi".

Dil amili, sənət ucalığı, klassik irsə və ənənəyə bağlılıq, təqlidçilikdən qaçmaq, dövrün yenilikçi ruhunu duymaq səriştəsi və s. Mir Cəlalin dəqiq meyarlar sistemində ədəbi fakta, ədəbi prosesə yanaşmasının ahəngi dəyişməzdir. Sənət kredosu bu ali ölçüləri meyara çevirdiyi üçün yaşarıdır. Ona görə istər bədii, istərsə də elmi-nəzəri irsi zamanla səsləşir, milli düşüncə tariximizin bugünündə inamla iştirak edir, əsrlərlə yol gedə, Yol ola bilir.



**ELNARƏ AKİMOVA,**
**Milli Məclisin deputatı**
**YAP İdarə Heyətinin üzvü,**
**filologiya elmləri doktoru,**
**AMEA Nizami Gəncəvi adına**
**Ədəbiyyat İnstitutunda şöbə müdiri**

# Fransadan İrəvana “son həmlə”...

## Paris sülh prosesinə mane olmağa çalışır

Ermənistanla Azərbaycan arasında aparılan sülh prosesi bir sıra xarici qüvvələri narahat etməkdədir. Xüsusilə, sülh sənədində yer alan “kənar güclərin bölgədən çıxarılması təmin edilməsi” məsələsində razılığın əldə olunması bölgəyə müdaxilə etmək üçün bir sıra yollara əl atan, cəhdlər göstərən gücləri təlaşlandırıb. Səbəb isə məlumdur - sülhün məhz bu müddəalar üzrə gerçəkləşməsi başda Fransa olmaqla bölgədə destruktiv fəaliyyətlə məşğul olan bütün qüvvələri zərərsizləşdirəcək. Başqa sözlə, bu güclərin Azərbaycan-Ermənistan münasibətləri üzərindən manipulyativ oyunları başa çatacaq.

### Aİ missiyası, yoxsa...

Bu nöqteyi-nəzərdən ilk yada düşən məqam Avropa İttifaqının məlum “monitorinq  missiyası”nın fəaliyyətidir ki, üçüncü qüvvələrin sərhəddən geri çəkilməsi təqdirində onlar hazırda durduqları “mövqeləri” tərk etmək məcburiyyətində qalacaqlar. Xatırladaq ki, birinci mərhələdə, yəni 2022-ci ildə 40 nəfər qismində və cəmisi iki aylıq nəzərdə tutulan monitorinq missiyasının tərkibinə Aİ üzvlərindən 23 ölkənin nümayəndələri daxil idi. sonradan isə tərkibi genişləndi - artıq Kanada belə bu missiyanın iştirakçısına çevrildi. Missiyanın bölgəyə gəlişi isə 2022-ci ilin oktyabrında Paşinyan, Avropa Şurasının Prezidenti Şarl Mişel, Azərbaycan Prezidenti İlham Əliyev və Fransa prezidenti Makron arasında keçirilən dördtərəfli görüşdə razılaşdırılmışdı. Həmin vaxt Avropa İttifaqının nümayəndələrinin iki ay müddətində məhdud kontingentinin bu monitorinqləri aparması nəzərdə tutulurdu - sonradan isə Azərbaycanla razılaşdırılmadan bu müddət uzadıldı və say təxminən 240 nəfərə qədər artdı. Paralel olaraq, Ermənistanın bəzi bölgələrində hətta onların ofisləri də fəaliyyətə başladı. Bu isə nəticə etibarı ilə sülh prosesinə köməkdən çox ona zərbə vurmağa hesablanmışdı.

### Parisdən növbəti sabotaj mesajı...

Artıq situasiya dəyişib, Ermənistanın sülh sənədinin bütün müddəaları ilə bağlı razılılıq bildirməsi bu ölkənin kənar güclər məsələsindəki mövqeyindən xəbər verir. Beləliklə, razılaşmanın əldə olunması onu göstərir ki, sülh müqaviləsi imzalanması Aİ missiyasının da bölgəni tərk etməsinə yol açacaq. Vurğulandığı kimi, prosesin bu yöndə inkişafı Aİ-nin, xüsusilə də Fransanın “maraqları” ilə uzlaşmır. Bunun nəticəsidir ki, Fransa hazırda geridönüşü olmayan bu prosesə bu və ya digər şəkildə mane olmağa, başqa sözlə, sülhü sabotaj etməyə çalışır. Belə ki, rəsmi Parisdən səslənən “mesaj” da bunu sübut edir. Fransanın xarici işlər naziri Jan-Noel Barrot Avropa İttifaqının (Aİ) Ermənistandakı missiyasının genişləndiriləcəyinə ümid etdiyini bildirib. Bu barədə Fransanın Ermənistandakı səfiri Olivye Dekotini sosial şəbəkələrdə məlumat verib. “Ümid edirəm ki, orada (Ermənistanda - red.) yerləşdirilən Avropa missiyası genişləndiriləcək. O məqsədlə ki, bu gərginliyi (Ermənistan-Azərbaycan sərhədində - red.) müşahidə edə və cilovlaya bilsin”, - o qeyd edib.






### Fransanın “arzuları”...

Göründüyü kimi, Fransa var gücü ilə sülhü qarşı mövqe tuğmaqdadır. Bu ölkə Ermənistanı qeyri-qanuni şəkildə silahlandırmaqla yanaşı, bu missiya vasitəsilə həm də kəşfiyyat materialları ötürür - adı “monitorinq”, mahiyyəti isə “hərbi” olan missiya Azərbaycan Ordusu, hərbi hissələrin dislokasiyası, potensial imkanları barədə kəşfiyyat məlumatları toplayır. Missiya üzvləri Ermənistan-Azərbaycan şərti sərhədi boyunca müntəzəm “monitorinqlər” aparır və bu məlumatlar yığılır. Mülki missiya nümayəndələri arasında hərbi keçmişə malik şəxslərin olması isə məsələdə heç bir şübhə yeri qoymur. Təsadüfi deyil ki, missiyanın sayı fəaliyyətə başladığı gündən bəri ən azı 6 dəfə artıb. Missiyaya yeni qoşulanlar isə əsasən Avropa ölkələrindən olan hərbi və təhlükəsizlik üzrə mütəxəssislərdir. Missiyanın rəhbərliyində olan şəxslər arasında NATO ölkələrində kəşfiyyat və təhlükəsizlik xidmətlərində çalışmış şəxslər yer alır.

Paralel olaraq vurğulanmalıdır ki, bölgədə sülh ilə bağlı ümidlər yaranan zaman bu missiya “dövriyyəyə” girir və hər hansı bir fransız mütləq şəkildə Ermənistan ilə Azərbaycan arasındakı bu prosesə mane olmağa çalırı. Hətta ötən ilin sonlarında Ermənistanın baş naziri Nikol Paşinyan ölkəsinin İctimai Kanalına müsahibəsində Ermənistanın Azərbaycana Avropa İttifaqı missiyasının delimitasiya olunacaq ərazidə fəaliyyət göstərməyəcəyini təklif etdiyini dilə gətirdiyi zaman belə Fransa bu məsələyə “münasibət” bildirmişdi. Həmin vaxt da Paris baş verənlərdən narahatlıq keçirərək yeni təxribatlara əl atmışdı - Fransanın Ermənistandakı səfiri Olivye Dekotini Ermənistan-Azərbaycan şərti sərhəddinə gələrək plan missiyanın mövcudluğunu təxminən iki dəfə artırmaqdır. Dekottini demişdi ki, “missiyanın mandatı Brüsseldə müəyyən edilir”...

### Aİ-nin son “aktivliyi”...

Missiya ilə bağlı məsələ son aylarda da gündəmdədir. Azərabycan ilə Ermənistan arasında razılaşmaların mahiyyətini duyan Aİ özünün rəsmi nümayəndələrini hər iki ölkənin paytaxtına göndərir. Təsadüfi deyil ki, Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono artıq bir neçə dəfə regiona “baş çəkib”. Ümumiyyətlə, Aİ-nin özünün “elçisini” bölgəyə yollamaqda məqsədi missiyaya “real legitimlik” qazandırmaq istəyindən qaynaqlanırdı. Nəticədə, fevralda bu müddət uzadıldı. Amma sülh sənədinin imzalanacağı təqdirdə bu məsələ artıq gündəmdən düşmüş sayılacaq.

Məsələnin mahiyyəti məhz burada açılır. Yuxarıda da vurğuladığımız kimi, Ermənistan zaman-zaman missiyanın sərhəddən çıxarılmasına eyham vursa da, onun “xidməti dövrü”nün artırılmasına razılıq verir. İrəvan bu yolla ikibaşlı oyun oynayır - gah missiyanın vaxtını uzadır, gah da Azərbaycanla kənar qüvvələrin çıxarılması ilə bağlı razılıq əldə edir. Fransız səfirin isə Ermənistan rəhbərliyi ilə ultimativ tonla danışması onu göstərir ki, Paris Cənubi Qafqazda da uduzduğunu anlayır. Hətta Aİ-nin daxilində belə nüfuzdan düşən, ikinci plana keçən Makron özünün “son ümid qalası” saydığı Ermənistanı da itirir. Bu isə Fransaya bölgədə nəzərdə tutulan mühüm qlobal ticari imkanlardan istifadə məsələsini tam şəkildə bloklayır.

Eyni zamanda, artıq iki ölkə arasında aktiv delimitasiya və demarkasiya prosesi getməkdədir. Belə bir məqamda beynəlxalq aləmin təmsilçiləri əgər səmimidirlərsə, Ermənistanın sülhlə bağlı mövqeyini dəstəkləməli və hətta prosesə töhfə verməlidirlər. Hazırkı mövqe isə ədalətsiz olduğu qədər, həm də birtərəflidir...

**P.İSMAYILOV**

# Avropa İttifaqında fikir ayrılığı...

## Rusiyaya qarşı 17-ci sanksiya paketi qəbul olunmaya bilər

Hazırda dünyada baş verən hadisələr fonunda “sanksiya siyasəti” daha geniş şəkildə tətbiq olunmağa başlayıb. Dünyanın böyük dövlətləri və blokları qarşılıqlı olaraq sanksiyalar tətbiq etməklə öz üstünlüklərini təmin etməyə çalışırlar. Bu mənada, son illərdə ən çox sanksiyalara məruz qalan ölkələrdən biri Rusiyadır. Ukrayna ilə müharibə səbəbilə Avropa İttifaqı (Aİ) Rusiyaya qarşı 16 sanksiya paketi qəbul edib. Sonuncu - 16-cı sanksiyalar paketi bu ilin fevral ayında Ukraynada hərbi əməliyyatların üçüncü ildönümü ilə əlaqədar təsdiqlənib. Bu paketdə nəzərədə tutulan məhdudiyyətlər 13 banka, eləcə də Aİ-nin Rusiyanın “kölgə” donanmasının bir hissəsi hesab etdiyi 73 gəmiyə, ilkin alüminiumun idxalına şamil olunub. Ümumilikdə, Rusiyanın 35 şirkəti və 48 fiziki şəxsi sanksiyalara məruz qalıb. Digər məsələlərlə yanaşı, Aİ ölkələri xrom və bəzi kimyəvi maddələrin idxalını, həmçinin neft və qaz emalı zavodlarına xidmət göstərilməsini qadağan edib.

Macarıstanın isə 16-cı paketdə nəzərdə tutulan məhdudiyyətlərdən Rusiya nefti və neft məhsullarından istifadə üçün istisnanı təmin edib və həmçinin Budapeşt metrosunun texniki xidməti ilə məşğul olan Rusiyanın “Metrovaqonmaş” şirkətinin fəaliyyətinə qoyulan qadağadan yayınıb.

### Macarıstan etiraz edir

Hazırda Avropa İttifaqı  Rusiyaya qarşı 17-ci sanksiyalar paketini hazırlayır və may ayında bu barədə razılığa gəlməyi planlaşdırır. Bunu Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komis-




siyasının vitse-prezidenti Kaya Kallas Aİ Şurasının Lüksemburqda keçirilən iclasından sonra mətbuat konfransında deyib. Jurnalistlərin yeni sanksiyalar paketində Rusiyadan mayeləşdirilmiş təbii qazın tədarükünə qadağanın daxil olub-olmayacağı ilə bağlı sualına Kallas belə cavab verib: “Müzakirələr davam edir, lakin siz bilirsiniz ki, sanksiyaların tətbiqi üçün 27 ölkənin hamısının razılığı lazımdır. Mənim fikrimcə, mümkün olan ən güclü sanksiyalar paketini tətbiq etmək lazımdır”.

Amma görünən odur ki, rəsmi Budapeşt bu məsələdə də müqavimət göstərəcək. Belə ki, Macarıstanın xarici işlər və xarici iqtisadi əlaqələr naziri Peter Siyarto bəyan edib ki, ölkəsi enerji təchizatı sahəsində Avropa İttifaqının  Rusiyaya qarşı yeni sanksiyalarını dəstəkləməyəcək. Nazir Aİ-nin XİN başçılarının görüşündə Rusiyaya qarşı 17-ci sanksiyalar paketi layihəsinin müzakirə olunduğunu və tədbirə videobağlantı vasitəsilə qoşulan Ukraynanın xarici işlər naziri Andrey Sibiqanın “Rusiyanın enerji resurslarına və nüvə sənayesinə qarşı sanksiyaların tətbiqini tələb etdiyini” vurğulayıb. “Avropa İttifaqından bir neçə həmkarımız bu tələblərə qoşulub. Biz bunu heç bir şəkildə dəstəkləməyəcəyik”, - deyə Peter Siyarto vurğulayıb.

Məlumdur ki, Rusiya-Ukrayna müharibəsində Avropa İttifaqı rəsmi Kiyevi dəstəkləyir. Aİ-nin sanksiyalarının məqsədi  Rusiyanı zəiflətmək, Ukraynanın isə müqavimət gücünü artırmaqdır. Rusiya-Ukrayna müharibəsi bəzən sanksiyalar müharibəsi kimi də səciyyələndirilir. İndiyədək Aİ-nin mərhələlərlə Rusiyaya qarşı qəbul etdiyi sanksiyaların əhatə dairəsi kifayət qədər genişdir. Qadağalar ilk növbədə Rusiyanın iqtisadi gücünü zəiflətməklə bu ölkənin gündəlik müharibə xərclərini qarşılamaq imkanlarını məhdudlaşdırmaq məqsədi daşıyır. O cümlədən indiyədək Rusiyaya ticarət, maliyyə, enerji, sənaye, texnologiya, nəqliyyat, ikili və dəbdəbəli mallar, qızılla bağlı geniş məhdudiyyətlər tətbiq edilib.

### Aİ Rusiyadan maye qaz almağa davam etsə də...

Avropa İttifaqı Rusiyadan maye qaz almağa davam etsə də, onun təkrar ixracını qadağan edib. Eyni zamanda, üçüncü ölkələrə hərbi məhsul satan Avropa şirkətləri onların Rusiyaya təkrar ixracı ilə bağlı riskləri müəyyənləşdirməli və qiymətləndirməlidir. Sanksiyalara, həmçinin Rusiya maye qazının Avropa limanlarından tranzitinə məhdudiyyətlər, rusların Ukraynadan çıxardığı mədəni və tarixi sərvətlərin satışına qadağalar, bu ölkəyə helium idxalının, həmçinin elektron komponentlərin, manqan və digər nadir elementlərin ixracının məhdudlaşdırılması daxildir. Sanksiyalar paketində Avropa İttifaqının aviakompaniyalarına rusiyalı fiziki və hüquqi şəxslərin sifarişi ilə çarter və şəxsi uçuşlar həyata keçirmək də qadağan olunur.

### Sanksiyalar Rusiya iqtisadiyyatına ciddi təsir etmir

Avropa İttifaqı Rusiya Mərkəzi Bankının SWIFT sistemini əvəz etmək üçün hazırladığı Maliyyə Mesajlaşma Sisteminə (SPFS) də sanksiyalar tətbiq edib. Bu sanksiyaya əsasən, Rusiyadan kənarda fəaliyyət göstərən Aİ təşkilatlarının SPFS və ya oxşar maliyyə mesajlaşma xidmətlərinə qoşulması qadağan olunub. Bundan əlavə, Aİ operatorlarına Rusiyadan kənarda SPFS-dən istifadə edən bir sıra təşkilatlarla əməliyyatlar aparmağa icazə verilmir. Aİ hüdudlarından kənarda maliyyə institutları və kriptovalyuta tədarükçüləri ilə əməliyyatlar, əgər bu şirkətlər Rusiyanın hərbi-sənaye kompleksi ilə bağlı hər hansı əməliyyatlarda iştirak edirsə, bu da qadağan olunacaq.



Lakin Aİ-nin sanksiyalarına baxmayaraq, Rusiya mövqeyindən geri çəkilmir. Əksinə, son aylar döyüş bölgəsində rus qoşunlarının üstünlüyü artır. Bu, həm də o deməkdir ki, Aİ-nin sanksiyaları Rusiya iqtisadiyyatına ciddi təsir etmir. Əksinə, həmin sanksiyalar bir sıra Avropa ölkələrinə mənfi təsir göstərməkdədir. Ona görə də, 17-ci sanksiyalar paketinin qəbul olunması sual altındadır.

**N.BAYRAMLI**





# BU GÜN TARİXİ ABİDƏLƏRİN MÜHAFİZƏSİ GÜNÜDÜR

18 Aprel - dünyada "Tarixi Abidələrin Mühafizəsi günü" kimi qeyd olunur. Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının (ICOMOS) təklifi ilə UNESCO tərəfindən 1983-cü ildə təsis olunmuş bu gün Azərbaycanda da geniş şəkildə qeyd olunur və hər ilin 18 Aprel günü tarixi yerlərdə, qoruqlarda müxtəlif sərgilər, tədbirlər keçirilir. Tarixi abidələrə aid olan - məbədlər, saraylar, günbəzlər, körpülər, məqbərələr, qəbiristanlıqlar, məscidlər, minarələr və bu kimi yerlər keçmişimizin tarixi, keçmişimizin yadigarlarıdır. Hər bir ölkənin tarixinin qədimliyi onun mədəniyyət abidələrin çoxluğu, qədimliyi ilə ölçülməkdədir.

Azərbaycan da məhz bu qədim tarixə, qədim mədəniyyətə malik ölkələrdəndir. Qalalarımız - Qobustan, Cavanşir, Gülüstan, Gəmiqaya, İstisu qayaüstü təsvirləri, Çıraqqala, Əlincə, Gələrsən-görərsən; məqbərələrimiz-Yusif ibn Küseyr, Möminə Xatun, Olcaytu Xudabəndə; dini ibadətgahlarımız - Cümə məscidi, Təzəpir məscidi, Göy məscid, Şah Abbas məscidi, Gövhərağa məscidi; nadir memarlıq abidələrimiz - Şirvanşahlar, Həşt-behişt ("Səkkiz Cənnət"), Şəki xan sarayı, İrəvan Sərdar sarayı. Bütün bu abidələr Azərbaycanın qədim tarixindən, maddi-mədəniyyətindən xəbər verir.

Qarabağda zəngin tariximizə aid olan yüzlərlə tarixi, arxeoloji abidələrimiz var. Bu yüzlərlə tarixi abidələrimizdən biri də dünyanın ən qədim insan yaşayan məskənlərindən olan Azıx və Tağlar mağaralarıdır. Azərbaycan Milli Ordusu, Ali Baş Komandan İlham Əliyevin apardığı 44 günlük müharibə nəticəsində Azıx və Tağlar mağaraları, həmçinin işğal altında olan digər ərazilərimiz - Qarabağımız işğaldan azad olundu.

UNESCO-nun siyahısına düşmüş bu mağaralardan tapılmış mədəniyyət nümunələri - 1981-ci ildə Parisdə "İnsan muzeyi"ndə sərgidə "Avropanın ilk sakinləri" adı ilə nümayiş etdirilmişdir.

Möminə Xatun, Gülüstan, Bərdə türbələri, Şirvanşahlar sarayı, Şəki xan sarayı və s. bu kimi orta əsrlərə aid olan abidələr həm Şərq, həm də dünya memarlığının ən gözəl, ən parlaq incilərindəndir.

Qobustan Dövlət Tarixi-Bədii Qoruğu, "İçərişəhər" memarlıq kompleksi UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş, Qobustandakı muzey isə 2013-cü ildə Avropanın ən yaxşı muzeyləri sırasına daxil edilmişdir.

***"Biz tarixi keçmişimizə nəzər salarkən, ulu babalarımızın yaratdığı və indiyə qədər yaşayan abidələrlə, qalalarla, şəhərlərlə, heykəllərlə, yollarla - yaradılan hər bir şeylə fəxr edir və bunları yaradanları daim xatırlayır, onlara öz minnətdarlığımızı bildiririk".***

***Ulu öndər Heydər Əliyev***

Tarixi mədəniyyət abidələrimizin qorunması, gələcək nəsillərə çatdırılması yönündə ulu öndər Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Dövlətinin başçısı cənab İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Birinci xanım Mehriban Əliyevanın həm Azərbaycanda, həm də Azərbaycanın hüdudlarında həyata keçirdikləri böyük, əvəzolunmaz işlər hər bir kəs üçün ən gözəl, ən düzgün örnəkdir.

Milli Azərbaycan Tarixi Muzeyi ölkə prezidentinin qayğısı və diqqəti ilə bu gün Azərbaycanın önəmli elmi-mədəni ocağına çevrilmişdir. Hal-hazırda muzeyin ekspozisiyası həm zəngin tarixi materiallarına görə, həm də elmi-texniki təchizatına görə ən məşhur muzeylərin ekspozisiyası ilə eyni səviyyədədir. Muzeyin binası məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin özünün və ailəsinin yaşayış evi olmuşdur. Tağıyev sarayı Bakının ən böyük tarixi abidələrindəndir.

Xeyriyyəçi və milyonçu Hacı Zeynalabdin Tağıyevin "Qızlar məktəbi" elmin, təhsilin inkişafında mühüm rol oynamışdır.

Hacı Zeynalabdin Tağıyevin "Qızlar məktəbi"nin (hazırki AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu) yerində daha əvvəl Cümə məscidi tikilməli imiş, lakin bu alınmır. 5 noyabr 1896-cı ildə bu yer H. Z. Tağıyevə "Qızlar məktəbi"ni tikdirməsi üçün verilir. Orta əsr Şərq memarlığının ən nadir və gözəl elementlərini özündə əks etdirən bu bina 1898-1901-ci illərdə inşa edilmişdir. Binanın layihə rəhbəri 1892-1904-cü illərdə Bakının baş memarı olmuş İ. V. Qoslavskidir. 1915-ci ilin sentyabr ayında binada 2 illik pedaqoji kurslar fəaliyyət göstərmişdir.

1918-ci il dekabr ayının 7-də Azərbaycan öz müstəqilliyini elan edəndən sonra H. Z. Tağıyevin Qızlar məktəbinin binasında (indiki AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu) İslam Şərqinin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin ilk iclası keçirilmiş, onun sədri Məhəmməd Əmin Rəsulzadə ilk iclasda geniş şəkildə çıxış etmişdir. Həmin ilin 24 iyun tarixində Cümhuriyyətin ilk bayrağı da elə məhz bu binada qəbul edilmişdir. 1920-ci ilədək - Cümhuriyyətin süqutuna kimi binada parlamentin 145 iclası keçirilib. Həmçinin Cümhuriyyət dövründə ilk dəfə təşkil olunan İstiqlal Muzeyi də burada fəaliyyət göstərmişdir.

Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan SSR Ali Soveti bu binada yerləşmişdir. Azərbaycanın görkəmli şair-dramaturqu Hüseyn Cavid 1920-1937-ci illərdə bu binanın üçüncü mərtəbəsində yaşamışdır. 1982-ci ildə isə Azərbaycan Elmlər Akademiyasının Əlyazmalar İnstitutu bu binaya koçürülmüşdür.

Ulu öndər Heydər Əliyevin 15 may 2001-ci il tarixli Fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına "Azərbaycan Milli Elmlər Akademiyası" adı verilmişdir. Əlyazmalar İnstitutu Heydər Əliyev cənablarının iştirakı və köməyi sayəsində 4 dekabr 1986-ci il tarixində Respublika Əlyazmalar Fondunun bazasında təsis edilmişdi.

O zamanlar Əlyazmalar İnstitutunun kimin adına olması mübahisəli məsələ idi. Müxtəlif fikirlər, müxtəlif təkliflər içərisində uzaqgörən, təcrübəli siyasətçi, dahi şəxsiyyət Heydər Əliyevin təklifi daha məntiqli idi. Belə ki, Azərbaycanda Ədəbiyyat İnstitutu Nizami Gəncəvinin, Dilçilik İnstitutu İmadəddin Nəsiminin adını daşıyırsa, Əlyazmalar İnstitutu da dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin adı ilə adlandırılmalı idi. Azərbaycanda qorunan əlyazmalar sırasında əsərlərinin ən çox əlyazma nüsxəsi olan şair elə məhz Füzulidir. Füzulinin dünyada qorunan, bizə məlum olan əlyazmalarının ümumi sayı 763-dür. Əlyazmalar İnstitutunda isə Füzuli əsərlərinin 102 əlyazma nüsxəsi mövcuddur.

Heydər Əliyevin bu təklifindən sonra 1996-cı ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənablarının Fərmanı ilə şairin anadan olmasının 500 illik yubileyi ərəfəsində Əlyazmalar İnstitutuna Məhəmməd Füzulinin adı verildi.

Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan Milli Elmlər Akademiyası bağlanmaq təhlükəsi ilə üzləşəndə ümummilli lider Heydər Əliyev görkəmli alimlərimiz və ziyalılarımızla görüşmüş, onlarla fikir mübadiləsi aparmış, AMEA-nın dirçəlməsi və inkişafı üçün əməli addımlar atmışdır. AMEA-ya milli sərvətimiz kimi dəyər vermişdir.

***"Azərbaycan Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir. Onu qoruyub saxlamalıyıq".***

***Ümummilli lider Heydər Əliyev***

Hazırda bu binada Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, üçüncü mərtəbədə Hüseyn Cavidin ev-muzeyi, kənar hissəsində isə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası fəaliyyət göstərir. Həmçinin bina Azərbaycan Respublikası Nazirlər Kabinetinin 132 nömrəli, 02.08.2001-ci il tarixli Qərarı ilə dövlət qeydiyyatına götürülmüşdür.

Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Beynəlxalq Əlyazmalar Cəmiyyətinin (ABŞ) və İslam Əlyazmaları Cəmiyyətinin (Böyük Britaniya) üzvüdür. Azərbaycana məxsus olan orta əsr yazılı abidələri (Əlyazmalar İnstitutunun kolleksiyasından 4 unikal əlyazma) UNESCO-nun Dünya Yaddaşı siyahısına əlavə edilmişdir. Tarixi binada yerləşən Əlyazmalar İnstitutu ölkəmizə gələn xarici alimlərə zəngin əlyazma xəzinəsinin qapılarını açır. Son 50 ildə İnstitutu UNESCO-nun Baş katibi, ICESCO-nun sədri, müxtəlif ölkələrin prezidentləri, o cümlədən dövlət, elm və mədəniyyət xadimləri ziyarət ediblər.

Mədəni irsi gələcək nəsil üçün qorumaq hər birimizin vəzifəsidir. Tarixi abidələrimizi öyrənməli, qorumalı və tariximizi birlikdə qorumalıyıq!

***NURANƏ ÇƏLƏBİ***
***M. Füzuli adına Əlyazmalar İnstitutunun "Ərəbdilli əlyazmaların tədqiqi" şöbəsinin tərcüməçisi***

# ABŞ qlobal liderlikdən geri çəkilir?

## Diplomatik nümayəndəliklərin bağlanması təklifi nəyə xidmət edir?

Yaxın zamanda ABŞ-ın bir çox ölkələrdəki diplomatik nümayəndəlikləri fəaliyyətini dayandıra bilər. Belə ki, Tramp administrasiyası ABŞ-ın xarici ölkələrdəki təxminən 30 səfirlik və konsulluğunun bağlanması imkanını nəzərdən keçirir. "CNN"nin məlumatına görə, təklif olunan dəyişikliklər ABŞ-ın diplomatik xidmətində daha genişmiqyaslı islahat gözləntiləri fonunda baş verir. Tramp administrasiyası İlon Maskın rəhbərlik etdiyi İdarəetmənin Effektivliyi Departamenti (DOGE) tərəfindən təşviq olunan planlar əsasında Dövlət Departamentində ixtisarların aparılması üçün tədbirlər görmək niyyətindədir.

Dövlət katibi Marko Rubionun bu bağlanma təkliflərini nəzərdə tutan sənədi imzalayıb-imzalamadığı hələ məlum deyil. Sənəddə 10 səfirlik və 17 konsulluğun bağlanması tövsiyə olunur. Onların çoxu Avropa və Afrikada, bəziləri isə Asiya və Karib hövzəsində yerləşən ölkələrdir. Sənədə əsasən, Maltada, Lüksemburqda, Lesotoda, Konqo Respublikasında, Mərkəzi Afrika Respublikasında və Cənubi Sudanda yerləşən səfirliklərin, o cümlədən Fransada beş, Almaniyada iki, Bosniya və Herseqovinada iki, Böyük Britaniyada bir, Cənubi Afrikada bir və Cənubi Koreyada bir konsulluğun fəaliyyətinin dayandırılacağı gözlənilir. Sənəddə, həmçinin qeyd olunan ölkələrdə bağlanacaq səfirliklərin funksiyalarının qonşu ölkələrdəki diplomatik nümayəndəliklər tərəfindən yerinə yetirilməsi təklif olunur.

### Bu, ABŞ-ın xarici siyasətinə necə təsir edəcək?

Məsələ ilə bağlı politoloq Əlimusa İbrahimov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Trampın addımı ABŞ-ın qlobal diplomatiyasına mənfi təsir göstərəcək. Onun sözlərinə görə, səfirliklərin və konsulluqların bağlanması ABŞ-ın digər dövlətlər, vətəndaş cəmiyyətləri və iqtisadi subyektlərlə birbaşa əlaqə qurmaq imkanlarını əhəmiyyətli dərəcədə azaldacaq. "Bu, ABŞ-ın siyasi manevr etmə qabiliyyətinin azalmasına səbəb olacaq, Vaşinqtonun regional siyasətinin təsir imkanlarını məhdudlaşdıracaq, eyni zamanda, kəşfiyyat məlumatlarının toplanmasında və potensial münaqişələr haqqında erkən xəbərdarlıqların edilməsində ciddi problemlər yaradacaq. Hətta ABŞ-ın ənənəvi yumşaq güc siyasəti öz təsirini itirəcək". Politoloq əlavə edib ki, diplomatik missiyalar təkcə diplomatik münasibətlər deyil, həmçinin iqtisadi-ticari, elmi-texnoloji, nəqliyyat-logistika və mədəni sahələrdə də münasibətlərin qurulmasına və inkişafına cavabdehdir. "Missiyalar mədəni mübadilə, iqtisadi tərəfdaşlıq və yumşaq güc layihələrini təşviq edirlər. Missiyaların bağlanması ABŞ-ın strateji əhəmiyyətli regionlarda, habelə qeyri-sabit regionlarda yerləşən dövlətlər ilə münasibətlərini zəiflədəcək. Demək olar ki, ABŞ-ın strateji hədəflərində boşluqlar yaranacaq. Xüsusi bir məqamı da vurğulayım ki, digər güc mərkəzləri, xüsusən də Çin, Rusiya və İran Trampın bu siyasətindən istifadə edərək regionlarda bu boşluğu doldurmaq istəyəcək. Bu dəyişiklik ABŞ-ın beynəlxalq mövqeyini zəiflədə bilər".

### Büdcəyə qənaət, amma xarici siyasətdə əks-təsir

"Tramp administrasiyasının nöqteyi-nəzərindən, səfirliklərin bağlanması daha geniş qənaət və ya "Birinci Amerika" maliyyə siyasətinin bir hissəsi kimi qəbul edilə bilər. Qeyd edim ki, diplomatiya zərurət kimi deyil, bürokratik yük kimi qəbul edilir. Bununla belə, maliyyə qənaətləri qlobal təsirin azalmasının uzunmüddətli dəyəri ilə müqayisədə nisbətən təvazökarlıq kimi görünür. Amma səfirliklər hərbi bazalar və ya beynəlxalq yardım proqramları ilə müqayisədə nisbətən aşağı qiymətə malikdir, lakin onların olmaması sonradan böhranın idarə edilməsində daha yüksək xərclərə gətirib çıxara bilər",- deyə Ə.İbrahimov bildirib.





### Bayden administrasiyasına siyasi mesaj

Politoloq qeyd edib ki, Tramp administrasiyası bu kimi addımları ilə əvvəlki administrasiyadan daha effektli və səmərəli siyasət yürütdüyünü göstərir. "Bu cür qənaətləri təklif etməkdə Tramp siyasi bəyanat vermək məqsədi güdür. O, hazırkı administrasiyanın Bayden administrasiyasından daha səmərəli fəaliyyət göstərdiyini qabartmağa çalışır".

### Çoxtərəfliliyin pozulması

"Tramp xidməti fəaliyyətinin ilk günlərində ABŞ-ın Paris sazişindən və Ümumdünya Səhiyyə Təşkilatının üzvlüyündən çıxması ilə bağlı qərarlar imzaladı. Eyni zamanda, öz çıxışlarında NATO və BMT-ni kəskin şəkildə tənqid etdi. Səfirlik və konsulluqların bağlanması sadəcə olaraq, bu məntiqin davamıdır,"- deyə Ə.İbrahimov vurğulayıb ki, qənaət şəraitində diplomatik nümayəndəliklərin bağlanması uzunmüddətli strateji çatışmazlıqlar riskini daşıyan qısamüddətli iqtisadi-siyasi addımıdır. "ABŞ-ın dünya üzərində təsiri zəifləyəcək, fəal diplomatiya imkanları məhdudlaşacaq və kritik bölgələrdə rəqib güclərin təsir imkanları artacaq. Nəticə etibarı ilə bu, ABŞ-ın qlobal liderlikdən geri çəkilməsinə gətirib çıxaracaq".

***Yunis ABDULLAYEV***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması” istiqaməti üzrə hazırlanmışdır**




## Hansı yeniliklər lazımdır?

*Yeganə BAYRAMOVA*

Cəmiyyətin inkişafı və insanların maariflənməsi baxımından elmi-kütləvi, mədəni-maarif və təhsil proqramlarının hazırlanması çox vacibdir. Elmi-kütləvi proqramlar elmin müxtəlif sahələrini sadə və anlaşılan şəkildə geniş kütlələrə təqdim etməyi məqsəd qoyur. Bu proqramlar insanların elmi məlumatlara və yeniliklərə daha asan şəkildə yiyələnməsini təmin edir.

Çünki dövlətin inkişafını şərtləndirən ən mühüm amillərdən biri də onun təhsil sektorunu inkişaf etdirməkdir. Müstəqil Azərbaycan dövlətini bugünkü inkişaf səviyyəsinə çatdırmaq üçün bir çox sahələr üzrə mühüm işlər görülür. Onlardan ən əsası təhsil sistemində edilən yeniliklərdir. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması dövlət siyasətinin əsas prioritetlərindən biri olduğu üçün bu istiqamətdə qəbul olunan proqramlar sözügedən sektorun inkişafını əhəmiyyətli dərəcədə artırır.

Mövzunu “Yeni Azərbaycan”a şərh edən təhsil üzrə ekspert Elçin Əfəndinin sözlərinə görə, bilik əhatəsinin genişlənməsində mühüm amillərdən biri də elmi-kütləvi, mədəni-maarif, təhsil proqamlarıdır ki, onların inkişafı çox vacibdir. Ekspert qeyd edib ki, cəmiyyətimiz yeniliyə, liberallığa açıq bir toplum kimi tanınır. Dünyada çox az xalq var ki, bu qədər yeniliyə meyllidir: “Azərbaycan xalqı hər zaman çalışır ki, dünyada mövcud olan yeni texnologiyalardan istifadə etsin. Həm özünün, ailəsinin, həm də toplumun inkişafına nələri isə verə bilsin. Əlbəttə ki, bu çox yaxşı haldır. Lakin onun mənfi tərəfləri də çoxdur. Mənfi tərəf ondan ibarətdir ki, hər hansı texnologiya, yenilik, siyasi, ictimai, sosial və elit amillər Azərbaycana xaricdən gəlir. Özümüzün yaratdığımız nə isə yoxdur və ya çox azdır. Bizim yaratdığımız ilklər təəssüflər olsun ki, yalnız Avropada və digər ölkələrdə uğur qazandıqdan sonra Azərbaycana



xarici texnologiya formatında gəlib çıxır. Məsələn, Lütfizadənin “Qeyri-səlis məntiq nəzəriyyə”si və yaxud gənclərimizin iri şirkətlərdə gördüyü yenilikləri nümunə göstərmək olar. Bu da onunla bağlıdır ki, Azərbaycan cəmiyyəti təəssüf ki, bünövrədə intellektual olmağı seçmir. Yəni mütaliə etməklə elə də aramız yoxdur, eləcə də dərsliklərin və elmi kitabların səviyyəsi qənaətbəxş deyil. Elmi-kütləvi, mədəni-maarif, təhsil sahəsində hazırlanan proqramlar, ortaya qoyulan sənədlər çox mükəmməl olsa da, onların icrasında problemlər müşahidə olunur. Bu proqramlarda əks olunanların icra prosesində gerçəkləşməsi ləngidiyinə, yaxud adekvat olmadığına görə narazılıqlar yaranır. Bu da layihələrin, proqramların normal qəbul olunmasına maneə törədir. Bütün hallarda çox zaman problem o proqramların icrası zamanı yaşanır”.

Ekspert əlavə edib ki, hazırda televiziya və radio da daha geniş imkanlar təklif edir. Üstəlik, internet resurslarından burada da istifadə mümkündür: “Diqqəti çəkən ən vacib məqamlardan biri də ondan ibarətdir ki, kommersiya xarakterli proqramlara televiziya və radiolarda daha geniş diqqət ayırmaqdansa, məhz elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarına önəm verilə bilər. Şübhəsiz ki, kitabın, kitabxananın, elmin, mədəniyyətin təbliğinə televiziyalar xüsusi yer ayırmalı, şou xarakterli proqramların əvəzinə kütləvi xarakter daşıyan maarifçilik əhəmiyyətli proqramlar təqdim olunmalıdır. Vətən müharibəsindən, Azərbaycanın qələbəsindən sonra davamlı olaraq elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması üzərində ciddi şəkildə işlənilməlidir. Cəbhədə döyüşlər bitsə də, informasiya müharibəsində mübarizə hələ də davam edir. Bunun üçün cəmiyyətimiz daha da təkmilləşməli, dünya görüşü artırılmalı, savadlanmalı və hərtərəfli informasiya ilə təmin edilməlidir. Bu məqsədlə də əlbəttə ki, elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının inkişaf etdirilməsinə, hətta yenilərinin hazırlanmasına çox böyük ehtiyac var. Qələbənin təmin olunmasında, ərazi bütövlüyümüzün bərpa edilməsində, Ali Baş Komandanın qətiyyəti, uzaqgörənliyi, liderlik keyfiyyətləri, apardığı siyasət proqram şəkilində universitet və orta məktəblərdə tədris olunmalıdır. Bu baxımdan proqramların hazırlanmasında mütəxəssis yanaşması və rəyi mütləq nəzərə alınmalı, alimlərin, mədəniyyət xadimlərinin, təhsil ekspertlərinin imkan və potensialından istifadə edilməlidir. Bu da əldə etdiyimiz zəfərdən sonra daxil olduğumuz yeni mərhələdə, post-konfilikt dövründə və bundan sonra həmrəyliyimizin və birliyimizin daha da güclənməsində ciddi töhfəsini vermiş olacaq”.

## Allah rəhmət eləsin!

Sayman Aruz Natiq Allahverdiyeva qardaşı
**FƏTULLA ALLAHVERDİYEVİN**
vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir, Allahdan səbr diləyir.

*İdman*

## Çempionlar Liqası: Son yarımfinalçılar “Arsenal” və “İnter” olub



UEFA Çempionlar Liqasında 1/4 final mərhələsinə yekun vurulub. Son iki cavab oyunundan sonra yarımfinalın bütün iştirakçıları bəlli olub. “İnter” Almaniyada 2:1 hesabı ilə qalib gəldiyi “Bavariya”nı bu dəfə İtaliyada qəbul edib. 2:2 hesablı heç-heçə Milan təmsilçisini növbəti mərhələyə yüksəldib. “İnter” bu raundda İspaniya “Barselona”sına rəqib olub. Digər matçda isə İngiltərə “Arsenal”ı İspaniyada “Real Madrid”lə qarşılaşıb. Londondakı ilk oyunda rəqibini 3 cavabsız qolla məğlub edən “topçular” səfərdə də qələbə qazanıblar - 2:1. “Arsenal” yarımfinalda Fransanın PSJ komandası ilə üz-üzə gələcək.

## İdmanda yeni nəfəs - “Sportfest-2025”




Aprelin 26-dan iyunun 28-dək Bakıda böyük idman festivalı keçiriləcək. “QOLAT Sport Services”in təşkilatçılığı ilə baş tutacaq “Sportfest-2025” adlı genişmiqyaslı tədbirə qatılacaq gənclərdən ibarət komandalar müxtəlif idman növlərində qüvvələrini sınayacaqlar.

“Sizi idmana dəvət edirik” şüarı ilə start götürəcək festival çərçivəsində müxtəlif yaş qruplarından və sahələrdən olan iştirakçılar, həm yarışlarda güclərini sınayacaq, həm də yaradılan əyləncə zonalarından istifadə edərək asudə vaxtlarını səmərəli şəkildə keçirə biləcəklər.

“QOLAT Sport Service”in təsisçisi və direktoru Səid Bağırov bildirib ki, “Sportfest”in əsas məqsədi gənclər və idmanseverlər üçün sağlam həyat tərzini təşviq etmək, onlara həm rəqabət, həm də əyləncə atmosferi yaratmaqdır: “İdman və bədən tərbiyəsi fiziki sağlamlıqla yanaşı, insanları mənəvi ucalığa, ədalətə və dostluğa dəvət edir. İdman və bədən tərbiyəsi həm də insanlarda həyata nikbinlik yaradır, onlara yaşamaq eşqi, zövq və istirahət verir. Beləliklə, idman və bədən tərbiyəsi sosial siyasətin özünəməxsus bir sahəsi kimi özünü göstərməyə başlayır”.

Qeyd edək ki, sportfest zamanı iştirakçılar futbol, voleybol, basketbol, stolüstü tennis, subsoccer və digər idman turnirlərində güclərini sınayacaqlar. Turnirlər üzrə təqdim ediləcək pul mükafatları, dəyərli hədiyyələr və sponsor tərəfindən veriləcək sürprizlər bu tədbiri daha da maraqlı və cəlbedici edəcək.

Festival ərzində qurulacaq fan zonalar, stolüstü oyunlar, interaktiv idman guşələri, müxtəlif idman növləri üzrə seminarlar, tanınmış idmançılarla görüş, canlı musiqi və DJ performansları, həm idmançılar, həm də ziyarətçilər üçün unudulmaz anlar yaşadacaq.

## Bakıda şahmat “savaşı” başlayır




Bakıda Azərbaycan Şahmat Federasiyası (AŞF), Gənclər və İdman Nazirliyi, Milli Xalça Muzeyinin birgə təşkilatçılığı ilə “Çempionların savaşı” adlı turnir keçiriləcək. AŞF-dən AZƏRTAC-a bildirilib ki, aprelin 27-30-da Milli Xalça Muzeyində Azərbaycanın və dünyanın aparıcı şahmatçıları rapid və blits mübarizəsində qarşılaşacaqlar.

“Çempionlar savaşı”nda Azərbaycan çempionu Rauf Məmmədov 15-ci dünya çempionu Vişvanatan Anandı (Hindistan), qadınlar arasında ölkə çempionatının qalibi Günay Məmmədzadə isə dünya və Avropa çempionu Antoaneta Stefanovanı sınağa çəkəcək. “Çempionlar savaşı”nda qalib rapid və blits üzrə turnirlərin cəminə əsasən müəyyənləşəcək. Turnirdə qədim sənət növü ilə dünyanın ən qədim oyunu vəhdət təşkil edərək, zəka sahiblərinin mübarizə məkanına çevriləcək.

Qeyd edək ki, Vişvanatan Anand, Rauf Məmmədov, Antoaneta Stefanova və Günay Məmmədzadə aprelin 27-də ölkə birinciliyinin qalib olan yeniyetmə şahmatçılara seans keçəcək.

## Boksçumuz diskvalifikasiya edilib



Azərbaycan Milli Antidopinq Agentliyi Azərbaycan boksçusu Fərid Sadıqovu diskvalifikasiya edib. AZƏRTAC AMADA-nın rəsmi saytına istinadən xəbər verir ki, o, 48 ay müddətinə idmandan kənarlaşdırılıb. Buna idmançının nümunəsində qadağan edilmiş maddə və ya onun metabolitləri, yaxud markerlərinin aşkarlanması səbəb olub. F.Sadıqovun cəzasının müddəti 2028-ci il yanvarın 1-də başa çatacaq.

## BOK-un yeni prezidenti məlum olub

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) yeni prezidentinin adına aydınlıq gəlib.

Apasport.az xəbər verir ki, BOK-un Yunanıstanda keçirilən 144-cü sessiyasında Kirsti Koventri (Zimbabve) qurumun rəhbəri seçilib.

O, komitəyə rəhbərlik edəcək ilk qadın olacaq. Koventri növbəti 4 ildə təşkilata rəhbərlik edəcək. Kirsti Afina-2024 Olimpiadasının üzügüçülük yarışlarında qızıl medal qazanıb. Zimbabveli mütəxəssis bu vəzifədə Tomas Baxı əvəzləyəcək. Koventri vəzifəsinin icrasına iyunun 24-də başlayacaq.

Qeyd edək ki, BOK rəhbəri vəzifəsinə onunla yanaşı Faisal bin Hussein (İordaniya), Sebastyan Koe (Böyük Britaniya), oğul Xuan Antonio Samaranç (İspaniya), Yohan Elias (İsveç), David



Lappartien (Fransa) və Morinari Vatanabe (Yaponiya) yarışıb.

## “Liverpul” Vircil van Dayk ilə yeni müqavilə imzalayıb



Məlum olduğu kimi “Liverpul” müdafiəçisi Vircil van Dayk ilə yeni müqavilə mövzusunda razılıq əldə edilmiş, ancaq imzalanma gecikirdi.Artıq tərəflər rəsmi müqaviləyə qol çəkiblər.  Müqavilənin detalları isə açıqlanmayıb. Futbolçu ilə 2027-ci ilə qədər nəzərdə tutulan yeni müqavilə imzalandığı ehtimal edilir. 33 yaşlı müdafiəçi İngiltərə Premyer Liqasının cari mövsümündə 32 oyun keçirib, 2 qol vurub və 1 məhsuldar ötürmə edib. O, 2018-ci ildən “Liverpul”da çıxış edir.Qeyd edək ki, “Liverpul” daha öncə 32 yaşlı hücumçusu Məhəmməd Salahla da müqavilə müddətini uzatmışdı.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4928
Sifariş: 755
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova